RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 172 (8765) ÇƏRŞƏNBƏ, 18 avqust 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# BİZ GƏLDİK, BAYRAĞIMIZI UCALTDIQ!





## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarına səfərləri çərçivəsində

- Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağında inşa olunacaq 11.6 kilometrlik tunelin təməlinin qoyulması mərasimində iştirak ediblər;
- Kəlbəcər Kiçik Su Elektrik Stansiyasında görülən işlərlə tanış olublar;
- 110/35/10 kV-luq “Kəlbəcər” yarımstansiyasının açılışını ediblər;
- Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3.4 kilometr uzunluğundakı tunelin təməlini qoyublar;
- Laçın Beynəlxalq Hava Limanının təməlqoyma mərasiminə qatılıblar;
- Kəlbəcərdə arıçılarla görüşüblər;
- Kəlbəcər şəhərində Dövlət bayrağını ucaldıblar;
- Kəlbəcər şəhərindəki “N” saylı hərbi hissədə olublar;
- Kəlbəcərdə “İstisu” sanatoriyasına gediblər.

Bax: səh. 2-8

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

**general-leytenant ali hərbi rütbəsi**

general-mayor Cavid Mirhəmzə oğlu Abdullayevə
general-mayor Elşən Ələkbər oğlu Verdiyevə

**general-mayor ali hərbi rütbəsi**

polkovnik Babək Vahid oğlu Qurbanova
polkovnik Faiq Həmzəağa oğlu Məmmədova.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2021-ci il*

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və mülki işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsinin təmin edilməsində, ərazi bütövlüyünün qorunub saxlanılmasında və sərhəd mühafizə orqanları qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçuları və mülki işçiləri təltif edilsinlər:

**“Azərbaycan Bayrağı” ordeni ilə**

Abdullayev Azad Eyyub oğlu - polkovnik
Nəzərov Təyyar Şahmurad oğlu - polkovnik
Şirinov Azər Əliyusif oğlu - polkovnik
Tağıyev Bəhruz Sabir oğlu - polkovnik
Məmmədov Pərviz Şakir oğlu - polkovnik-leytenant

**3-cü dərəcəli “Rəşadət” ordeni ilə**

Niftullayev Zaur Rəşidoviç - polkovnik

**3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə**

Ağayev Ziyad Balakərim oğlu - kontr-admiral
Qiyasov Abbas Hüseyn oğlu - kontr-admiral
Musayev Hafiz Məhərrəm oğlu - general-mayor
Babayev Aqil İnşallah oğlu - polkovnik
Həsənov Ruslan İsmayıl oğlu - polkovnik
Qaralov Qinyaz Xalid oğlu - polkovnik
Quliyev Elçin Sahib oğlu - ehtiyatda olan polkovnik
Mirzəyev Ceyhun Ulduzxan oğlu - polkovnik
Mustafayev Elman Tapdıq oğlu - polkovnik
Salamov Samir Akif oğlu - polkovnik
Vəliyev Faiq Mirzağa oğlu - polkovnik
Əliyev Elnur Abutalıb oğlu - polkovnik-leytenant
Həsənov Elmir Mircəlil oğlu - mayor
Əliyev Natiq Mehdi oğlu - baş gizir

**“Vətən uğrunda” medalı ilə**

Əliyarlı Sahib Vəli oğlu - polkovnik
Xasiyev Ruslan Mayis oğlu - polkovnik
Qasımov Zaur Bəkir oğlu - polkovnik
Qəniyev Azər Həsənağa oğlu - polkovnik
Qulamov Ceyhun Cahangir oğlu - polkovnik
Şərifova Maya Kərəm qızı - polkovnik
Ağayev Sabir Fəzail oğlu - polkovnik-leytenant
Əmirov Vüsal Cəbrayıl oğlu - 2-ci dərəcəli kapitan
Kamılov Əli Lahıc oğlu - polkovnik-leytenant
Qurbanov Məhəmməd Əli oğlu - polkovnik-leytenant
Məmmədov Üzeyir Sahib oğlu - polkovnik-leytenant
Abuzərli Elçin Natiq oğlu - ədliyyə mayoru
Aslanov Vüsal Sayad oğlu - mayor
Məmmədov Fehruz Abbas oğlu - mayor
Abbaszadə Abbas Zahir oğlu - kapitan
Allahverdiyev İlyas Mətləb oğlu - kapitan
Əhmədov Natiq Osman oğlu - kapitan
Ələsgərov Nəimi Məmmədrəhim oğlu - kapitan
Ənnağıyev Rövşən Elşən oğlu - baş leytenant
Əliyev Firal Hafis oğlu - leytenant
Hüseynov Emil Rabil oğlu - leytenant
Şükürov Zamiq Ziyafət oğlu - baş gizir
Quliyev Eldəniz Qardaş oğlu - gizir
Məmmədov Elmir Sultan oğlu - gizir
Abutalıbov İlqar Tofiq oğlu - işçi

**“İgidliyə görə” medalı ilə**

Babayev Rasim Mübariz oğlu - 2-ci dərəcəli kapitan
Qənbərov Azər Heydər oğlu - polkovnik-leytenant
Məhərrəmov Məhərrəm Atlıxan oğlu - mayor
Salmanov Nihad Hüseynəli oğlu - mayor
Bağırov Əli Şəmsəddin oğlu - kapitan
Rəşidov Mənsur Tahir oğlu - gizir
Vəlişov Mərdan Vaqif oğlu - gizir

**“Hərbi xidmətlərə görə” medalı ilə**

Kalbalıyev Aqil Barat oğlu - polkovnik
Qurbanov Natiq Nadir oğlu - polkovnik
Tağıyeva Flora Asif qızı - polkovnik
Abbasov Eldəniz Hüseyn oğlu - polkovnik-leytenant
Cəbrayılov Rahil Ağacəfər oğlu - polkovnik-leytenant
Əsədov Xudakərim Tapdıq oğlu - polkovnik-leytenant
Hacıyev Ənvər Yusif oğlu - polkovnik-leytenant
Heydərov Fuad Fərman oğlu - polkovnik-leytenant
Həziyev Səxavət Yavər oğlu - polkovnik-leytenant
Hüsənov Nazim Oruc oğlu - polkovnik-leytenant
Hüseynov Emin Adil oğlu - polkovnik-leytenant
İbrahimov Samir Tahir oğlu - polkovnik-leytenant
Məmmədov Samir Əmirxan oğlu - polkovnik-leytenant
Məmmədov Zaur Əvəz Ağa oğlu - polkovnik-leytenant
Mustafayev Zaur Rəcəb oğlu - polkovnik-leytenant
Nəcəfov Hacıağa Heydərağa oğlu - polkovnik-leytenant
Nağıyev Namiq Qafar oğlu - polkovnik-leytenant
Omarov Azər Fərəməz oğlu - polkovnik-leytenant
Səidov Ceyhun Ağali oğlu - polkovnik-leytenant
Ağayev Rasim Yunis oğlu - mayor
Allahverdiyev Fərzənd Allahqulu oğlu - mayor
Babayev Nail Azad oğlu - mayor

Ardı 9-cu səh.

# BİZ GƏLDİK,








Xəbər verildiyi kimi, avqustun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ömər aşırımından Kəlbəcərin füsunkar mənzərəsini seyr etdilər.

**Prezident İlham ƏLİYEV:** Yolumuz Kəlbəcərədir, işğaldan azad edilmiş Kəlbəcərə. Ömər aşırımından keçərək Kəlbəcərə gedirik. Bu yol son bir neçə ay ərzində genişləndirildi. Çünki bu yol demək olar ki, keçilməz idi. İndi yol boyunca tunellər tikilir. Tunellər tikiləndən sonra gediş-gəliş çox rahat olacaq. Amma hələlik biz bu yoldan istifadə edirik və bu gözəl mənzərələr də göz oxşayır. Kəlbəcərin mənzərələri indi daha da gözəldir. İndi yolumuza davam edirik. Bu aşırımın hündür hissəsində dayanaraq bir daha Azərbaycan xalqını tarixi Zəfər münasibətilə təbrik etmək istəyirəm.

Müharibədən sonra Kəlbəcərə ilk səfərimdir. Bir neçə tədbir nəzərdə tutulur. Kəlbəcərin bərpası, yenidən qurulması prosesinə start veriləcəkdir.

Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!

❖ ❖ ❖

Kəlbəcərə gedərkən avtomobildən çəkilən videogörüntüdə **Prezident İlham ƏLİYEV** deyir: Mehriban xanım Kəlbəcərin gözəl mənzərəsini çəkir və yol boyunca Azərbaycanın gözəl təbiətini seyr edirik. Əminəm ki, bu, kadrlara baxanlar üçün də çox maraqlı olacaq. Artıq Kəlbəcərin meşələri də göründü. Bildiyimiz kimi, Kəlbəcərin çox füsunkar təbiəti var - dağlar, dərələr, meşələr.

Baxın bu dağıntılara. Ermənilər Kəlbəcəri tərk edərkən buraları dağıdıblar. Bütün binaları, su elektrik stansiyalarını, hamısını dağıdıblar. Bu dağıntılar erməni vəhşiliyinin növbəti təzahürüdür.

Ermənilər tərəfindən dağıdılmış evlər. Bura Zallar kəndinin ərazisidir.




Dövlət başçısı və birinci xanım Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağında inşa olunacaq 11.6 kilometrlik tunelin təməlinin qoyulması mərasimində iştirak etdi.

Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolunun layihə uzunluğu 81 kilometr təşkil edir. Dövlət başçısının tapşırığına əsasən, avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla, 2-4 hərəkət zolaqlı olmaqla 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir. Layihənin 16-cı kilometrlik hissəsindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1900 metrdən Murovdağ zirvəsinədək 3260 metrə qədər artır. Ərazinin çətin relyefi və təhlükəsizlik məsələləri nəzərə alınaraq Murovdağ silsiləsinin altından 11.6 kilometrlik tunelin tikintisi məqsədəuyğun hesab edilib.

Dövlət başçısı tunelin təməlini qoydu.







**Prezident İlham ƏLİYEV** dedi: Durduğumuz yol ermənilər tərəfindən çəkilmiş Basarkeçər-Kəlbəcər yoludur. Onlar Ermənistanı Qarabağla birləşdirmək üçün ikinci yol çəkdilər. Laçın dəhlizindən əlavə. Beləliklə, Kəlbəcəri və digər əraziləri məskunlaşdırmaq və özlərinin gediş-gəlişini daha rahat etmək üçün bu yolu çəkdilər. Bu yol birbaşa Basarkeçər rayonuna gedir. Basarkeçər rayonuna Ermənistanda "Vardenis rayonu" deyilir. Ancaq bu rayonun, bölgənin əsl adı Basarkeçərdir, Göyçə mahalıdır, qədim Azərbaycan torpağıdır. 1930-cu ildə Basarkeçər rayonu Ermənistan ərazisində yaradılıb. Orada yaşayanların da mütləq əksəriyyəti azərbaycanlılar olmuşdur. O cümlədən Zod kəndinin sakinləri də azərbaycanlılar idi, deportasiyaya məruz qalmışlar. Yalnız 1969-cu ilin iyun ayında Ermənistan Basarkeçər rayonunu, onun adını dəyişdirərək ona "Vardenis" adı qoymuşdur. Xahiş edirəm ki, Azərbaycanda bu bölgə ilə bağlı hazırlanan reportajlarda və ümumiyyətlə, bizim ümumi leksikonumuzda "Vardenis" yox, Basarkeçər adı bərpa edilsin. İndiki Ermənistan ərazisində yerləşən bütün digər qədim Azərbaycan yaşayış məntəqələri əsl adları ilə də çağırılmalıdır. Misal üçün, Naxçıvan-Ermənistan sərhədində mövcud olan gərginliklə bağlı mən indi mətbuatı izləyirəm. Bizim mətbuatda yazılıb ki, Ermənistanın "Yerasx" kəndində, onun ətrafında hansı hadisələr baş verir. Bu kəndin adı Arazdəyəndir və azərbaycanlılar deportasiyaya qədər orada əbədi yaşayıblar. Ona görə bütün qədim, yəni tarixi adlar bərpa edilməlidir. Bu adlar bizdə müxtəlif kitablarda da öz əksini tapıb. Ona görə xahiş edirəm ki, həm jurnalistlər, həm ümumiyyətlə, insanlarımız bu yerlərin əsl adlarını çəksinlər - Vardenis yox, Basarkeçər rayonu, Basarkeçər şəhəri.

Biz indi bu yoldan istifadə edirik. Ermənilər üçüncü yolu da çəkmək istəyirdilər - Cəbrayıla gedən yol. Bu haqda müharibə zamanı dəfələrlə öz fikirlərimi bildirmişdim və beləliklə, Ermənistanı Şərqi Zəngəzurla və Qarabağla üç yolla birləşdirmək istəyirdilər. Bunun yeganə məqsədi qanunsuz məskunlaşma siyasəti aparmaqdı və bu da hərbi cinayət sayılır. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan beynəlxalq qurumlar, ilk növbədə, ATƏT-in Minsk qrupu buna laqeyd yanaşmışdır, Ermənistana heç bir irad tutmamışdır, onları bu işlərdən çəkindirməyə cəhd etməmişdir, sadəcə olaraq, müşahidəçi kimi bunu müşahidə edirdi. Onlar, hətta bu yolda da olublar, onu da görüblər və Cəbrayıl rayonunda nəzərdə tutulmuş yolun inşasına da etiraz bildirməmişdilər. O vaxt bu yol çəkiləndə biz etirazımızı bildirmişdik. Biz səsimizi qaldırmışdıq, biz demişdik ki, buna yol vermək olmaz, Azərbaycan ərazisində qanunsuz işlər aparıla bilməz. Ancaq bizi eşidən yox idi. Amma bu gün mən gəlmişəm, həmin yolun üstündə durmuşam və biz bu yolda bundan sonra əbədi qalacağıq, bu bölgədə əbədi yaşayacağıq.

Bu da gözəl Kəlbəcər dağları, hər tərəf dağ, çay, meşə, cənnətməkan. Cənnətə də çevriləcəkdir.

# BAYRAĞIMIZI UCALTDIQ!





**Prezident İlham ƏLİYEV:** Qamışlı kəndi. Burada bizim enerji infrastrukturumuz yaradılıb və bu yüksəkgərginlikli xətlər bu yaxınlarda çəkilib.

Bu asfalt yolu da ermənilər Basarkeçərdən çəkiblər. Kəlbəcərə getmək üçün Laçın dəhlizinə alternativ bir yol çəkmişdilər. Görün, gözəl də yoldur. İndi biz bu yoldan istifadə edirik. Bu yol çəkiləndə Azərbaycan tərəfi buna ciddi etiraz etmişdir. Deyirdik ki, buna yol vermək olmaz. Bu, ermənilərin məskunlaşma siyasətinin bir hissəsidir. Ancaq bizi eşidən olmadı. Nəticədə biz gəldik, bayrağımızı qaldırdıq. Düşməni torpağımızdan qovduq və indi bu yoldan istifadə edirik. Ermənilər isə bu yoldan məhrum oldular. Ona görə bu yolu da hərbi qənimət saymaq olar. Onlar üçüncü yolu da Cəbrayıldan salmaq istəyirdilər. O da yarımçıq qaldı. Onların arzuları gözlərində qaldı.

Bizim evlər - azərbaycanlıların ermənilər tərəfindən dağıdılmış evləri. Ermənilər 30 il ərzində bizim torpaqlarımızı ancaq istismar edirdi, təbii sərvətləri talayırdı, evləri dağıdırdı, sökürdü. Sonra da deyirdi ki, bura erməni torpağıdır. Bura heç vaxt erməni torpağı olmayıb və bundan sonra heç vaxt olmayacaq. Bu, Azərbaycan torpağıdır. Biz azərbaycanlılar - bu torpaqların sahibləri qayıtmışıq. Düşməni torpağımızdan qovaraq, düşmən ordusunu məhv edərək, qəhrəmanlıq, fədakarlıq göstərərək qayıtmışıq.

Biz indi "Kəlbəcər-1" Su Elektrik Stansiyasının yerinə gəlmişik.



Sonra Prezident İlham Əliyev Kəlbəcər Kiçik Su Elektrik Stansiyasında görülən işlərlə tanış oldu.

Hazırda Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyası tamamilə yenidən qurulur, stansiyanın maşın zalı, aqreqatı, generatoru, idarəetmə panelləri, transformatorları yenilənir. Suyu hidroaqreqata ötürən dağıdılmış plastik su borusu 1,3 kilometr məsafədə metal borularla əvəz edilir. Stansiyanın maşın zalı və 110/6 kilovoltluq yarımstansiyasında isə işlər tamamlanıb. Beləliklə, ermənilər tərəfindən dağıdılaraq yandırılan "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyası tam yenidən tikilir və işlərin qarşıdan gələn aylarda başa çatdırılması planlaşdırılır.

**Prezident İlham ƏLİYEV:** Lev çayı bizim gözəl çaylarımızdan biridir. Uzunluğu o qədər də böyük deyil - təxminən 20 kilometrə yaxındır. Ancaq mənbəyi Azərbaycandadır və bu gündən elektrik enerjisi istehsalına xidmət edəcək.







Bura da "Kəlbəcər" yarımstansiyasıdır. Qısa müddətdə - cəmi altı ay ərzində inşa edilib və Kəlbəcəri elektrik enerjisi ilə təmin edəcək.

❖ ❖ ❖

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının açılışında iştirak etdilər.

Dövlət başçısı işğaldan azad edilmiş ərazilərin ən qısa vaxtda Azərbaycanın ümumi enerji sisteminə qoşulması, bu ərazilərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məsələsinə xüsusi diqqətlə yanaşır. Bunun nəticəsidir ki, bu istiqamətdə işğaldan azad edilmiş bütün yaşayış məntəqələrində, o cümlədən Kəlbəcər rayonunda genişmiqyaslı işlər həyata keçirilib. 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının qısa müddətə inşası həyata keçirilən layihələrdən biridir.

Kəlbəcər rayonunun Qamışlı kəndi ərazisində müasir avadanlıqlarla təchiz olunaraq inşa edilən yeni yarımstansiyada 80 MVA gücündə yeni transformatorlar quraşdırılıb. Yarımstansiyada 110 kilovoltluq açıq, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular yaradılıb. "Kəlbəcər" yarımstansiyası məsafədən idarəolunan SCADA Dispetçer İdarəetmə sisteminə qoşulub və bunun üçün yeni idarəetmə binası tikilib. Burada ən yeni rəqəmsal texnologiyalardan istifadə edilib.

Dövlət başçısı yarımstansiyanı işə saldı.

Qeyd edək ki, ermənilər tərəfindən enerji sistemi tamamilə dağıdılan Kəlbəcər rayonuna Daşkəsəndən 70 kilometr məsafədə 110 kV-luq yüksəkgərginlikli ikidövrəli elektrikötürmə xətti çəkilib. Murov dağını aşmaqla çəkilən xəttin bəzi anker dayaqları dəniz səviyyəsindən 3400 metr yüksəklikdə quraşdırılıb.

Ardı 4-cü səh.







# BİZ GƏLDİK,





*Əvvəli 3-cü səh.*

Sonra Lev çayının sahilində çay süfrəsi arxasında söhbət edən **Prezident İlham ƏLİYEV** dedi:

- Kəlbəcər rayon yarımstansiyasının açılışını etdik. Çox əlamətdar hadisədir. Kəlbəcər rayonunun elektrik enerjisi ilə təchizatı üçün bunun çox böyük əhəmiyyəti var və deyə bilərəm ki, cəmi altı ay ərzində bu yarımstansiya ərsəyə gəldi. Özü də çox çətin bir hava şəraitində, çətin relyefdən, dağlardan keçərək, bu önəmli infrastruktur obyektini istifadəyə verdik. Yeni dirəkləri də görürsünüz. Dirəklərin ən hündür olan yeri 3400 metrdir. Doğrudan da böyük peşəkarlıq və məharət tələb edən layihədir və onu göstərir ki, bizim daxili resurslarımız o qədər güclüdür ki, biz qısa müddət ərzində bu işləri görə bilərik. Beləliklə, bu yarımstansiya Kəlbəcər rayonunu elektrik enerjisi ilə təchiz edəcək. Bu tədbirə qədər Lev çayı üzərində su elektrik stansiyasının tikintisi ilə tanış oldum. Orada generasiya gücü 4,4 meqavatdır. Biz artıq Güləbird Su Elektrik Stansiyasını işə saldıq, orada 8 meqavatdır, o, Laçın rayonundadır. Suqovuşan Su Elektrik Stansiyası da təmir olundu, yenidən quruldu, orada da 7,8 meqavatdır. Yəni, görün, biz artıq 20 meqavatdan çox elektrik enerjisini alternativ mənbələrdən hasil etməyə başlayırıq və bu hələ başlanğıcdır. Ermənilər bu bölgələri tərk edərkən bütün su elektrik stansiyalarını məhv etdilər, dağıtdılar. Biz onları bərpa edəcəyik. Güləbird, indi isə Lev çayı üzərində və digər su elektrik stansiyaları və onların sayını tədricən təxminən 20-yə çatdıracağıq, bəlkə də 30-a çatdıracağıq, amma tədricən. Beləliklə, bizim enerji potensialımız da güclənəcək. Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonası kimi yaşayacaq və bizim bütün planlarımız yerinə yetiriləcək. Cəmi 7-8 ay ərzində bu qədər işin görülməsi bizim gücümüzü göstərir, əzmkarlığımızı göstərir, güclü siyasi iradəni göstərir.

Bu gün biz Lev çayının kənarında çay içəcəyik armudu stəkanda. Bu, onu bir daha göstərir ki, nə qədər ermənilər çalışsalar da bizim xalqımızın iradəsini qıra bilmədilər. Biz buraya qayıtmalı idik və qayıtdıq. Onlar buradan getməli idilər və getdilər. Tarixi ədalət bərpa olundu və biz ölkəmizin bəlkə də ən gözəl rayonlarından biri olan Kəlbəcərə nəinki qayıtmışıq, Kəlbəcərin inkişafı ilə bağlı artıq planlarımızı reallaşdırırıq. Bundan sonra da tədbirlər olacaq. Hələlik isə çayımızı içək və təbiətdən zövq alaq. Yaşasın Azərbaycan!

Prezident İlham Əliyevin sərəncamına əsasən tikilən Kəlbəcər-Laçın avtomobil yolunun uzunluğu 72,8 kilometrdir. Birinci və ikinci texniki dərəcəyə uyğun tikiləcək yolun hərəkət hissəsinin eni 9-16 metr olacaq. İki və dörd hərəkət zolaqlı olacaq yol üzərində altkeçidlər və körpü inşa olunacaq. Yol üzərində 3 tunelin tikintisi aparılacaq. Tunellərin ümumi uzunluğu 9450 metr olacaq.

Prezident İlham Əliyev Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin təməlini qoydu.

**Dövlət başçısı dedi:** Bu gün ikinci tunelin təməli qoyuldu. Kəlbəcər-Laçın avtomobil yolunda tunel tikiləcək və beləliklə, ikinci tunelin bir müddətdən sonra istifadəyə verilməsi gediş-gəlişi daha da rahat edəcək. Bütün bu bölgənin, Şərqi Zəngəzurun hərtərəfli inkişafı üçün avtomobil yolları xüsusi əhəmiyyət daşıyır. Azad edilmiş torpaqların investisiya proqramı tutulanda mənim göstərişimlə məhz tunellər də bu layihələrə salınmışdır, o cümlədən Şuşaya gedən yolda və burada tunellər çəkilməkdədir. Tunelin tikintisi həm çətindir, xüsusilə belə ağır dağlıq relyefdə, eyni zamanda, çox böyük xərclər tələb edir. Ancaq biz bunu edirik və edəcəyik. Çünki bu, bölgənin, Şərqi Zəngəzurun inkişafına lazımdır. İnsanlar buraya qayıdandan sonra artıq Azərbaycanın digər bölgələri ilə çox rahat əlaqəyə malik olacaqlar. Həm Kəlbəcər və Laçın rayonları arasında əlaqələr möhkəmlənəcək, - Laçın rayonunda aeroportun tikintisi nəzərdə tutulur, - eyni zamanda, Kəlbəcər-Göygöl-Gəncə istiqamətində gediş-gəliş daha da rahat olacaq. Cəmi 8-9 ay ərzində görülmüş işlər onu bir daha göstərir ki, bizim çox güclü iradəmiz var, siyasi qərarlar verildi, bütün güclər, texniki imkanlar səfərbər olundu, maliyyə vəsaiti təmin edildi, Azərbaycanda, o cümlədən inşaat sahəsində kadr potensialı formalaşdı və hərtərəfli işlər gedir - elektrik xətləri, su elektrik stansiyaları, yarımstansiyalar, tunellər, körpülər, hava limanları, sosial obyektlər və bütün digər məsələlər. Bax, bu tunelin şəkli də burada göstərilir, çox rahat və təhlükəsiz bir yol olacaq.

Qarabağ Azərbaycandır!







**Prezident İlham ƏLİYEV:** İndi biz Laçın rayonuna gedirik. Sonra Kəlbəcər şəhərinə gedəcəyik. Yolumuz Laçın rayonunadır. Hava limanının təməlini qoyacağıq.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Bu yol təzə yoldur? Yoxsa olub bu yol?

**Prezident İlham ƏLİYEV:** Yox, bu, olub. Kəlbəcər-Laçın yolu da təbii ki, ən yüksək səviyyədə yenidən qurulacaq. İndicə təməlini qoyduğum hər iki tunel bu yolu daha da rahat edəcək. Bu da sovet vaxtında inşa edilmiş məşhur tuneldir. Burada göstərilir - inşası 1958-ci ildə başlamışdır, uzunluğu cəmi 200 metrdir. Bizim inşa edəcəyimiz tunellər isə 11 kilometr, 5 kilometrdir. Bax, bu gün Azərbaycan buna qadirdir. Bu isə köhnədən qalan Kəlbəcərlə Laçını birləşdirən yeganə yoldur. Artıq tunel işıqlandırılıb. Ermənilər Kəlbəcər və Laçını tərk edərkən bu tuneli partlatmaq istədilər. Görün, bu adamlar nə qədər məkrli hisslərlə yaşamışlar. Baxın bu hissəyə, buranı partlatmaq istədilər, amma alınmadı. Qaça-qaç idi, tələsirdilər.

Azərbaycanın gözəl mənzərələri. Kəlbəcər və Laçın rayonları təbiət nöqteyi-nəzərdən ən gözəl rayonlardandır. Ermənilər təbiətimizə nə qədər ziyan vursalar da, onu tam məhv edə bilmədilər.

❖ ❖ ❖

Qeyd edək ki, Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanı bir neçə mühüm amili özündə ehtiva edir. İlk növbədə, şübhəsiz ki, burada aeroportun tikilməsi ümumilikdə bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artırılmasına səbəb olacaq. Laçın hava limanının inşası həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək. Laçın hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq. Uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq hava limanında 6 təyyarə dayanacağının inşası nəzərdə tutulur. Bu hava limanı Kəlbəcər rayonu ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi asanlaşdıracaq.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın Beynəlxalq Hava Limanının təməlini qoydular.





# BAYRAĞIMIZI UCALTDIQ!

Tədbirdə çıxış edən **Prezident İlham ƏLİYEV** dedi:

- Bu gün azad edilmiş torpaqlarda böyük infrastruktur obyektinin təməli qoyulur. Laçın rayonunda beynəlxalq hava limanının tikintisinə start verilir. Bu hava limanının tikintisi mənim tərəfimdən bir müddət əvvəl elan edilmişdir. Demişdim ki, azad edilmiş torpaqlarda üç beynəlxalq hava limanı tikiləcək. Artıq Füzulidə və Zəngilanda bu işlərə start verildi. Füzuli Beynəlxalq Hava Limanı bu ilin sonuna, ya da gələn ilin əvvəlinə istismara tam hazır olacaq.

Zəngilanda da işlərə start verildi, mən şəxsən Zəngilan Beynəlxalq Hava Limanının təməlini qoydum. Zəngilan hava limanının istifadəyə verilməsi tarixi yəqin ki, 2022-ci il olacaq. Kəlbəcər və Laçın rayonlarında, - mən müharibə başa çatandan sonra elan etmişdim, - yer axtarılacaq və beynəlxalq hava limanı tikiləcək. Yerin axtarışı, əlbəttə ki, çox vaxt apardı. Çünki Kəlbəcər və Laçın rayonlarının relyefi elədir ki, burada düzən yer tapmaq mümkün deyil. Baxmayaraq ki, hər iki rayonun çox geniş ərazisi var, - dağlar, meşələr, dərələr, təpələr, - düz yer demək olar ki, yoxdur. Yeganə bu yer seçildi ki, burada yenə də böyük torpaq işləri aparmaqla hava limanının tikilməsi mümkündür. Hava limanının zolağı bax, arxamdakı yerdə olacaq, indi bunu təsəvvür etmək belə çətindir. Mən hesab edirəm ki, dünya tarixində belə relyefdə bəlkə də ilk dəfə hava limanı tikilir. Çünki bütün hava limanları adətən düzən ərazidə inşa edilmişdir. Burada belə yer olmadığı üçün yeganə yer bura - Laçın rayonunun Qorçu kəndi seçilib. Bu yerin üstünlüyü, eyni zamanda, ondadır ki, Laçın şəhərinə məsafə 30 kilometrdən bir qədər çox, Kəlbəcər şəhərinə məsafə isə 60 kilometrdən bir qədər çoxdur. Eyni zamanda Şuşa şəhərinə məsafə də 70 kilometrə yaxındır. Yəni gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq. Dediyim kimi, burada böyük torpaq işləri aparılacaq. Bəzi təpələr kəsiləcək, bəzi boşluqlar doldurulacaq. Yəni torpaq işləri vaxtımızı aparan əsas işlər olacaqdır.

O ki qaldı uçuş-enmə zolağına, o da standart ölçüdə olmalıdır. Yeni inşa edilən və ediləcək hər üç hava limanında uçuş-enmə zolağı üç kilometrə bərabərdir. Yəni bütün növ təyyarələr, o cümlədən ən ağır yük təyyarələri də bu hava limanlarına enə biləcək.

Beləliklə, azad edilmiş bölgələrin - Şərqi Zəngəzurun, Qarabağın bərpası, insanların buraya, bu zonaya qaytarılması üçün yeni imkanlar açılacaq. İndi demək çətindir, bu inşaat nə qədər zaman aparacaq. Ancaq, əlbəttə, biz istəyirik ki, maksimum qısa müddətdə aparılsın. Amma bunu demək çətindir. Çünki mal-materialların gətirilməsi üçün logistik problemlər var. İndi yay başa çatır, bir müddətdən - oktyabr ayından sonra buralarda qar yağacaq. Ona görə yollardan istifadə çətinləşəcək. Hər halda, bu gün bu tarixi hadisə baş verir, biz Laçın Beynəlxalq Hava Limanının tikintisinə start veririk. Hesab edirəm ki, bu, bir çoxları üçün gözlənilməz oldu. Bəziləri bunu möcüzə hesab edirdilər. Çünki sovet dövründə heç vaxt bu bölgədə - Kəlbəcər-Laçın zonasında hava limanı olmayıb. Məhz bu səbəbə görə. Çünki çox bahalı bir layihə ola bilərdi və məqbul yer də tapmaq mümkün deyil. Ancaq biz bunu edirik. Müstəqil Azərbaycan dövləti buna da qadirdir. Buna texniki imkanlarımız da, maliyyə imkanlarımız da və güclü iradəmiz də var. Bu hava limanını inşa edən Azərbaycan şirkəti olacaq. Bu da çox sevindiricidir. Çünki azad edilmiş torpaqlarda yerli şirkətlərin fəal işləməsi önəmli amillərdən biridir. Bizimlə bərabər böyük layihələrdə qardaş Türkiyə şirkətləri də fəal iştirak edirlər.

Zəngilan, Laçın, Füzuli hava limanlarının inşa edilməsi və istismara verilməsi bölgənin canlanmasına gətirib çıxaracaq. Bu hava limanlarının həm yüklər, həm sərnişinlər, eyni zamanda, hərbi təyinatı da, təbii ki, göz önündədir. Biz daim hazır olmalıyıq, daim öz hərbi gücümüzü artırmalıyıq, hərbi infrastruktur yaratmalıyıq və yaradırıq, o cümlədən hava limanları bizim hərbi məqsədlərimizə də xidmət edəcək.

Bu gözəl hadisə münasibətilə Azərbaycan xalqını, laçınlıları, kəlbəcərliləri, bütün keçmiş köçkünləri ürəkdən təbrik edirəm.











Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərdə arıçılarla görüşüb söhbət etdilər.

**Arıçılar:** Azərbaycanda arı ailələri iki dəfədən çox artıb.

**Prezident İlham ƏLİYEV:** Bizim balımız da çox keyfiyyətlidir. İndi Kəlbəcər balı yəqin ki, bütün digər yerlərdən daha da keyfiyyətli olacaq. Ona görə gərək həm daxili bazarı təmin edəsiniz, həm də ki, ixrac edəsiniz. Göstərməyə bir şey var?

**Arıçı:** Göstərməyə bəli var. Mən indi bir arı papağı verəcəyəm.

**Prezident İlham ƏLİYEV:** Onlar bilirlər biz kimik, bizə dəyməzlər. Bu, baldır?

**Arıçı:** Bəli, baldır, əsl Kəlbəcər balıdır. İcazə versəydiniz, bunlardan Sizə iki dənə hədiyyə verərdim.

**Prezident İlham ƏLİYEV:** İki dənə çoxdur, yox. Bir dənə bəsdir. Biz Kəlbəcər balından da dadarıq. Hazırdır da bu?

**Arıçılar:** Bəli, artıq hazırdır. Biri budur, birini də başqa yeşikdən taparam.

**Prezident İlham ƏLİYEV:** Yox, biri bəsdir. Bir dənə bəsdir dadmaq üçün.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Bir dənə bəsdir.

**Arıçılar:** Vuracaq indi.

**Prezident İlham ƏLİYEV:** Yox, bizə dəyməz, o bilir ki, biz kimik. Sizdən başqa da arıçılar var?

**Arıçılar:** Var, başqa arıçılar da var. Pilot layihə kimi 5 arıçı gəldi. Sonra başqa arıçılar gəldilər. Qoy bir dənə də çıxarım.

**Prezident İlham ƏLİYEV:** Yox, yox bəsdir.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Orada arı qalıb üstündə.

**Arıçı:** Bu, tam möhürlü olmadı, istəyirəm tam möhürlüsünü verim.

**Prezident İlham ƏLİYEV:** Yox, elə bu, kifayətdir.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Orada arılar var. Çəkirəm.

**Prezident İlham ƏLİYEV:** Gəlin birlikdə şəkil çəkdirək.

Sağ olun. Mən bütün köçkünlərə söz vermişdim ki, onları dədə-baba yurduna qaytaracağam.

**Arıçılar:** Biz inanırdıq, ona görə ki, biz Sizə inanırdıq, xalqımıza inanırdıq, şəhidlərimizə inanırdıq. Bizim təsərrüfatımızın builki məhsulunun 20 faizi şəhid ailələrinə yönəldiləcək.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Yəqin ki, təsərrüfatınızı getdikcə genişləndirəcəksiniz.

**Arıçı:** Bəli, genişləndirəcəyik. Çünki tək Kəlbəcər yox, ümumiyyətlə, işğaldan azad olunmuş torpaqlar arıçılıq üçün böyük yem bazasıdır. Ermənilərin böyük təsərrüfatları var idi burada və ixracla məşğul idilər.

**Prezident İlham ƏLİYEV:** Sovet vaxtında da Kəlbəcərdə arıçılıq inkişaf etmişdi.

**Arıçılar:** Kəndin özündə olub sovet vaxtında. Sovet İttifaqında Kəlbəcər balının adı çıxmışdı. Bu adı inşallah, özünə qaytaracağıq.

**Prezident İlham ƏLİYEV:** Ermənilər çox qanunsuz işlər görüblər, təbiətimizi məhv ediblər, istismar ediblər.

**Arıçı:** Ata-babalarımızın kökü buradadır, atamın qəbri buradadır. Kəlbəcərdə heç vaxt erməni yaşamayıb.

**Prezident İlham ƏLİYEV:** Bilirəm, heç vaxt. Amma sonra Kəlbəcəri özününküləşdirmək istədilər, adını dəyişdirməyə çalışdılar. Biz də gəldik, dərsini verdik, torpağımızı geri aldıq.

**Arıçılar:** Çox sağ olun. Təşəkkür edirik.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Sağ olun, uğurlar sizə. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Bütün qohum-qardaşlara salam deyin.

**Arıçılar:** Allah Sizi bu xalqımıza çox görməsin. Sağ olun.

*Ardı 6-cı səh.*



# BİZ GƏLDİK,

*Əvvəli 5-ci səh.*

**Prezident İlham ƏLİYEV:** Kəlbəcər şəhərinə yaxınlaşırıq. Bir neçə dəqiqədən sonra Kəlbəcər şəhərində olacağıq.

Artıq Kəlbəcər şəhərindəyik, şəhərin girəcəyindəyik. Bax, bunlar vəhşi ermənilərin əməlləridir. Baxın, görün, şəhər ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Vəhşi ermənilər başqa şəhər və kəndlərimiz kimi, Kəlbəcəri də dağıdıblar. Bütün binalar dağıdılıb. Bəzi binalarda ermənilər qanunsuz yaşayırdılar. Buradan çıxanda o binaları da yandırıb, sökdülər. Vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir. 1990-cı illərin əvvəllərində bu torpaqları işğal edərkən bizim şəhər və kəndlərimizi dağıtmışdılar. 2020-ci ildə biz bunları buradan qovanda da gedə-getdə ağacları kəsib, yandırıb, binaları dağıdıblar.

❖ ❖ ❖

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərinə gəldilər.

Dövlət başçısı Kəlbəcər şəhərində dövlət bayrağını ucaltdı və çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

- Hərbi əməliyyat nəticəsində torpaqlarımız işğaldan azad edildi. İkinci Qarabağ müharibəsi bizim şanlı Zəfərimiz kimi tarixdə əbədi qalacaq. Qələbə nəticəsində Kəlbəcər rayonu da Laçın və Ağdam rayonları ilə bərabər işğalçılardan azad edildi. Ermənistan noyabrın 10-da kapitulyasiya aktını imzalayaraq bu öhdəliyi də öz üzərinə götürmüşdür və Kəlbəcər, Laçın və Ağdam rayonlarını Azərbaycana qaytarmağa məcbur olmuşdur.

İkinci Qarabağ müharibəsinin ilk günlərində döyüşlər gedən zaman Kəlbəcərin şimal hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğalçılardan azad edilmişdir. Murov dağının ərazisində və ətraf yerlərdə şiddətli döyüşlər gedirdi, şəhidlər vermişdik. Ancaq strateji yüksəklikləri götürdük və bu yüksəkliklər bizə imkan verirdi ki, ermənilərin istifadə etdikləri nəqliyyat-kommunikasiya infrastrukturuna da nəzarət edək. Beləliklə, biz Kəlbəcərin şimal hissəsində strateji yüksəklikləri götürərək erməni silahlı qüvvələrinin hərəkətlərini bu istiqamətdə böyük dərəcədə məhdudlaşdıra bildik və faktiki olaraq onlar Basarkeçər-Kəlbəcər yolundan istifadə edə bilmədilər. Bu, hərbi əməliyyatın, əks-hücum əməliyyatının tərkib hissəsi idi. Biz əks-hücum əməliyyatını bir neçə istiqamətdə aparırdıq və hər istiqamət önəmli idi. Çünki biz artıq bəzi istiqamətlər üzrə müdafiə xəttini yararaq işğalda olan torpaqları azad edirdik, bəzi istiqamətlərdə strateji nöqtələri götürərək Ermənistan ordusunun hərəkətlərini demək olar ki, iflic vəziyyətə salmışdıq. Bəzi istiqamətlər üzrə, sadəcə olaraq, hərbi manevrlər apararaq erməni silahlı birləşmələrinin başqa yerə göndərilməsinin qabağını alırdıq. Beləliklə, Kəlbəcərin bir hissəsi, kiçik olan hissə döyüş meydanında azad edildi. Ancaq əksər hissəsi, böyük hissə Ermənistan kapitulyasiya aktına imza atandan sonra azad edildi.

Kəlbəcərin azad edilməsi tarixi hadisədir. Kəlbəcərin işğal altına düşməsi isə xalqımızın böyük faciəsi idi. Çünki Laçın və Şuşa rayonları 1992-ci ilin may ayında işğal altına düşəndən sonra ermənilərin növbəti hədəfi Kəlbəcər idi. Şuşa və Laçının işğalı ilə bağlı artıq Azərbaycanda çox dəqiq təsəvvür var. Hər kəs bilir ki, Şuşa və Laçının işğala məruz qalması AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində baş vermişdir. O vaxt hakimiyyət uğrunda mübarizə gedirdi, AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, nəyin bahasına olursa-olsun hakimiyyəti zəbt etməyə çalışırdı və onların nəzarəti altında olan bəzi qüvvələr, bəzi satqınlar Şuşanı demək olar ki, ermənilərə təhvil verdilər və Şuşa demək olar ki, müdafiə olunmadı. Şuşada olan bəzi silahlı dəstələr Şuşadan çıxdı və faktiki olaraq Şuşa ermənilərə təslim edildi. Məhz bunun nəticəsində Azərbaycanda hakimiyyət böhranı yaşandı və AXC-Müsavat cütlüyü bundan istifadə edib qanunsuz yollarla hakimiyyəti uzaqlaşdırıb, hərbi çevriliş törədib hakimiyyətə gəldi. Şuşa və Laçının işğal altına düşməsi sırf AXC-Müsavat cütlüyünün xəyanətidir, satqınlığıdır. Kəlbəcər rayonu işğal altına düşəndə artıq AXC-Müsavat cütlüyü öz çirkin məqsədlərinə çatmışdı, hakimiyyətdə idi. Təxminən bir ilə yaxın hakimiyyətdə idi. Kəlbəcər 1993-cü il aprel ayının əvvəlində işğal altına düşmüşdü və bunun da günahkarı AXC-Müsavat cütlüyüdür, AXC-Müsavat hakimiyyətidir. Onların xəyanətkar, satqın, antimilli hakimiyyəti Kəlbəcərin işğalını şərtləndirdi. Çünki 1992-ci ilin bahar-yay aylarından onlar demək olar ki, hakimiyyətdə idilər və bir il ərzində ancaq talançılıqla, rüşvətxorluqla, soyğunçuluqla, qanunsuzluqla və digər çirkin əməllərlə məşğul idilər. İndi bir çoxları bunu unudur. Gənc nəsil isə bundan xəbərsizdir. O dövr bizim milli faciəmiz, milli rəzalət dövrü idi. AXC-Müsavat hakimiyyəti dünya miqyasında bəlkə də ən biabırçı hakimiyyətlərdən biri idi, bəlkə də birincisi idi. Ölkə əldən gedirdi, ölkədə vətəndaş qarşıdurması pik həddə çatmışdı, torpaqlar işğal altına düşürdü, ancaq onlar yalnız öz mənafeyini, öz maraqlarını düşünürdülər. Hakimiyyətə gəlmiş antimilli ünsürlər Azərbaycanı demək olar ki, bütün beynəlxalq tərəfdaşlardan, xarici tərəfdaşlardan təcrid etdilər və həm xarici, həm daxili siyasətdə kobud səhvlər buraxdılar və cinayətlər törətdilər. Kəlbəcərin işğala məruz qalması satqın AXC-Müsavat hakimiyyətinin əməlləridir. Kəlbəcər işğal altına düşəndən sonra Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında birbaşa coğrafi bağlantı yarandı və artıq digər torpaqların işğalı da labüd idi. Çünki AXC-Müsavat hakimiyyəti ordu quruculuğuna fikir vermirdi, orduda heç bir islahat aparılmırdı. Əksinə, ordumuzu zəiflətmək üçün hər vasitədən istifadə edirdi. Torpaqlar işğal altına düşürdü, onlar isə öz laxlamış hakimiyyətini qorumaq üçün Gəncəni bombalayırdılar. Onlar Azərbaycan əsgərlərini əsir götürmüşdülər. Bu videokadrlar var. Burada ermənilər soyqırımı törədirdilər, şəhərlərimizi viran qoyurdular. Baxın, Kəlbəcər nə gündədir, digər şəhərlər nə gündədir. Onlar isə Azərbaycan əsgərlərini əsir götürüb, öz hakimiyyətini möhkəmləndirmək istəyirdilər. Görəndə ki, artıq bu da mümkün deyil, qaçdılar gizləndilər, dövlət səviyyəsində fərarilik etdilər. AXC-Müsavat hakimiyyəti, onun başında duranlar fəraridirlər, satqındırlar, qorxaqdırlar, xaindirlər və bu, əsl həqiqətdir.

Əlbəttə, biz torpaqlarımızı azad etmək üçün addımlarımızı elə atırdıq ki, bütün torpaqlar azad edilsin. Artıq bu da sirr deyil ki, danışıqlar dövründə masa üzərində olan təkliflər bizim maraqlarımızı qane etmirdi. Mən bunu açıq bəyan etmişdim və məhz buna görə təklif edilən varianta razılıq vermirdim. Çünki son 10 il ərzində nədən söhbət gedirdi - beş rayon Azərbaycana qaytarıla bilər, Kəlbəcər və Laçın rayonları isə keçmiş Dağlıq Qarabağda referendum keçiriləndən sonra Azərbaycana qaytarıla bilər. Əlbəttə, biz buna heç cür razı ola bilməzdik. Çünki heç bir referendumdan söhbət gedə bilməzdi. Mənim siyasətim ondan ibarət idi və mən bunu açıq şəkildə bəyan edirdim ki, bizim bütün torpaqlarımız işğalçılardan azad edilməlidir, ərazi bütövlüyü tam bərpa edilməlidir, bizə məsələnin yarımçıq həlli lazım deyil. Məhz buna görə edilən təkliflərə Azərbaycan tərəfi razılıq vermirdi. Ancaq sonra bilindi ki, Ermənistan da buna razı deyil. Çünki Ermənistanın məqsədi bu torpaqları, zəbt edilmiş bütün torpaqları əbədi işğal altında saxlamaq idi. İndi çıxan yeni məlumatlar və eyni zamanda, azad edilmiş torpaqlarda mövcud olan mənzərə onu göstərir. Torpaqları təhvil vermək istəyən 6 xətt müdafiə istehkamları qurmazdı. İndi bilinir ki, onların məqsədi status-kvonu əbədi etmək, bizə bir qarış torpaq qaytarmamaq, məsələni uzatmaq idi. Onlar öz xarici havadarlarına güvənərək bunu 30 il ərzində həyata keçirirdilər və istəyirdilər ki, bundan sonra da 300 il ərzində bunu həyata keçirsinlər. Hesab edirdilər ki, bu siyasət onlara xeyir gətirəcək. Hesab edirdilər ki, Azərbaycan öz torpaqlarını müharibə yolu ilə azad etməyəcək. Hesab edirdilər ki, bizi kimsə dayandıracaq. Onların himayədarları bizə, necə deyərlər, təsir göstərəcəklər, təzyiq göstərəcəklər. Ancaq bilmirdilər bütün Azərbaycan xalqı bir amalla yaşayır ki, işğala son qoyulsun, düşmən torpaqlarımızdan qovulsun və biz öz dədə-baba torpaqlarımıza qayıdaq və qayıtdıq. Ermənistan ordusunu məhv edərək qayıtdıq, Ermənistan faşizminin başını əzərək qayıtdıq, erməni cəlladlarını cəzalandıraraq qayıtdıq, şəhidlərimizin qanını alaraq qayıtdıq. Qayıtmışıq, bu gün burada durmuşuq və əbədi duracağıq!

İkinci Qarabağ müharibəsi, bir daha demək istəyirəm, tarixi Zəfərimizdir. Azərbaycanın çoxəsrlik tarixində buna bənzər qələbə olmamışdır. Müharibə ilə bağlı artıq kifayət qədər məlumatlar var və təkrar etmək istəmirəm. Müharibənin gedişatı hər kəsə məlumdur. Sadəcə olaraq, indi bizim dərsliklərimizdə, elmi əsərlərdə, məqalələrdə, kitablarda müharibə ilə bağlı və müharibədən əvvəlki dövrlə bağlı çox müfəssəl və geniş məlumat verilməlidir ki, biz bu tarixi olduğu kimi qeyd edək, bu tarixi olduğu kimi yazaq və gələcək nəsillər də daim bunu bilsinlər və unutmasınlar, o cümlədən erməni vəhşiliyini unutmasınlar.

Ancaq bu gün İkinci Qarabağ müharibəsi ilə bağlı bu sözləri deyərkən bir məsələyə diqqət yetirmək istəyirəm. Bu müharibə, eyni zamanda, erməni mifologiyasının tamamilə məhv olması deməkdir. Çünki uzun illər ərzində, otuz il ərzində ermənilər dırnaqarası "hərbi qələbə" ilə öyünürdülər. Ermənilər bir neçə mif uydurmuşdular ki, onların ordusu "yenilməz ordu"dur və onların ordusu bu torpaqları əbədi işğal altında saxlaya bilər. Biz bu mifi dağıtdıq. Erməni ordusu yoxdur bu gün. Erməni ordusu tamamilə məhv edildi. Erməni ordusunun silah-sursatlarının mütləq əksəriyyəti məhv edildi, ya da ki, qənimət kimi götürüldü və indi Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Biz erməni ordusunu "yenilməz ordu" kimi təqdim edən mifologiyaya son qoyduq.

İkinci mif ondan ibarət idi ki, erməni əsgəri "cəsur"dur və istənilən müharibədə qalib gələ bilər. Biz bu mifi də darmadağın etdik. Erməni əsgəri fəraridir, qorxaqdır. Onlar özləri etiraf etdilər və bu da sübut olundu ki, müharibə dövründə Ermənistan ordusunda 10 min fərari olmuşdur. Azərbaycan Ordusunda bir nəfər də olsun fərari olmamışdır. Yəni bu mif də darmadağın edildi. Erməni əsgəri fəraridir.

Növbəti mif isə o idi ki, azərbaycanlılar öz torpaqları uğrunda vuruşmayacaqlar, onlar bu vəziyyətlə barışıblar və əgər otuz ilə yaxın müddət ərzində müharibə başlamayıbsa, bundan sonra da başlamayacaq. Bu mifi də biz dağıtdıq. Biz göstərdik ki, bu vəziyyətlə heç vaxt barışmaq fikrində deyildik. Mən bunu dəfələrlə deyirdim. Bütün çıxışlarımda deyirdim ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq, nəyin bahasına olursa-olsun torpaqlarımızı işğalçılardan azad edəcəyik və bunu etdik. Bu mifologiya da darmadağın edildi.

Növbəti mif onların dırnaqarası "sərkərdələri" ilə bağlı idi. Guya Ermənistanda elə görkəmli generallar, sərkərdələr var ki, onlar istənilən hərbi vəzifəni yerinə yetirə bilərlər. Biz gördük ki, onların generalları oğrudurlar, "tuşenka" satandırlar. Onların sərkərdələri də qorxaqdırlar, fəraridirlər. Xocalı cəlladları Köçaryan, Sarkisyan, Ohanyan müharibə zamanı Qarabağa soxulmuşdular, orada idilər. Amma görəndə ki, müzəffər Azərbaycan Ordusu öz torpaqlarını qəhrəmancasına azad edir, qaçdılar gizləndilər. Soruşmaq lazımdır onlardan, oradan nəyə görə çıxdılar? Onlar Xankəndidə idilər, üçü də. Niyə qaçmısınız? Niyə gizlənmisiniz? Mən demişəm, bir daha deyirəm, o dəmir-dümürləri çıxarın, onları atın zibil yeşiyinə. Siz fərarisiniz, qorxaqsınız. Biz sizi məhv etmişik. Xocalı soyqırımında ən fəal rollardan birini oynayan keçmiş müdafiə naziri Şuşadan güclə canını qurtardı, son anda canını qurtardı. Dovşan kimi qaçmışdılar. Biz onları məhv etmişik. Onların dırnaqarası "qəhrəmanlarını", "Artsax", olmayan "Artsax" qəhrəmanlarını məhv etmişik. Onlar bu damğa ilə əbədi yaşayacaqlar. Fərarilər, satqınlar, cəlladlar, qorxaqlar - onlar ancaq əliyalın əhali ilə müharibə apara bilərlər. Necə ki, vaxtilə Xocalını işğal edəndə burada demək olar ki, onlara müqavimət göstərən qüvvə yox idi, mülki vətəndaşlar idi. Bax, bu evlərdə yaşamış mülki vətəndaşlar idi və aprel ayında hələ burada qarlar əriməmişdi, onların böyük hissəsi burada həlak oldu. Onlar buradan Gəncə istiqamətinə, o Murov dağının üstündən, Ömər aşırımından keçərkən onlara pusqular qurdular. Onları - uşaqları, qadınları, qocaları qətlə yetirdilər. Onlar məcbur olub ayaqyalın, qarlı-şaxtalı havada Ömər aşırımından keçərək, on kilometrlərlə yolu qət edərək buradan çıxmalı idilər. Bir çoxları da yolda qaldı, dondu, öldü. Bu, erməni vəhşiliyidir. Biz vəhşiləri məğlub etdik. Biz bölgəni vəhşilərdən, faşistlərdən xilas etdik. Bunu heç kim heç vaxt unutmamalıdır.

Erməni mifologiyasının biri də o idi ki, guya ermənilər qədim tarixə, mədəniyyətə malikdirlər və burada "vəhşi müsəlmanlar" arasında qalıblar. Guya ki, o, Qafqazda mədəniyyətin ocağıdır, beşiyidir, yaxud da son məntəqəsidir. Onların mədəniyyəti, bax, budur. Bax, bu binalardır, qazılmış qəbirlərdir, dağıdılmış məscidlərdir. Bunu hansısa başqa planetdən gələn yadplanetli yox, erməni edib. Özü də Birinci Qarabağ müharibəsi dövründə yox, müharibədən sonra, məqsədyönlü şəkildə, barbar kimi, vəhşi kimi, vandal kimi, bir-bir evlərin kərpiclərini, daşlarını söküb aparıb özləri üçün daxmalar tikiblər.

Onlar artıq buradan gedəsi olanda, kapitulyasiya aktını imzalayandan sonra da bizdən vaxt istədilər. Rusiya rəhbərliyi bizə müraciət etmişdir ki, onlara əlavə on gün vaxt verin, onlar buradan öz şələ-şüləlməmmrini yığışdıra bilmirlər. Onlara vaxt verin ki, çıxsınlar. Biz yenə də humanistlik göstərdik. Yenə də vaxt verdik noyabrın 25-nə qədər. Amma onlar bu müddət ərzində nə etdilər?! Onlara məxsus olmayan, qanunsuz məskunlaşdıqları evləri yandırdılar, dağıtdılar. İndi yol boyunca o evlər görünür. Ağacları kəsdilər, ağacları yandırdılar. Bax, erməni vəhşiliyi budur. Zaman dəyişir, erməni faşizmi dəyişmir və dəyişməyəcək. Heç kim bunu unutmamalıdır. İndi onların bəzi hallarda göndərdikləri yaltaqlıqla dolu sözlərinə inanmaq olmaz. Buna inanmaq istəyən, bax, bu mənzərəni göz önünə gətirsin, dağıdılmış Ağdamı, Füzulini, Şuşanı, Kəlbəcəri, Laçını, Zəngilanı, Qubadlını, Cəbrayılı göz önünə gətirsin. Erməni vəhşilərin əməlləri göz qabağındadır. Amma onların hamiləri bunu görmək istəmirlər. Amma görməlidirlər və görəcəklər. Onların gözünə soxacağıq. Biz indi kitablar da dərc edirik, göstəriş vermişəm, təqdimatlar da olacaq. Xarici ölkələrdə sərgilər olacaq. Biz göstərəcəyik. Bunu görmək istəməyən məcbur olub görəcək. Görəcək ki, erməni faşizmi, erməni vəhşiliyi nədir.

# BAYRAĞIMIZI UCALTDIQ!

Ermənilər işğal dövründə, eyni zamanda, bizim təbii sərvətlərimizi də qanunsuz olaraq talan edirdilər. Bu işlərdə bəzi xarici şirkətlər onlara yardım edirdi. Bu şirkətlərin indi iki yolu var: ya bizə təzminat ödəyəcəklər, ya da ki, beynəlxalq məhkəməyə gedəcəklər.

Artıq məhkəmə prosedurları başlamışdır. Buna biz start verdik, tanınmış beynəlxalq hüquq şirkətlərini dəvət etdik və indi məhkəmə işləri hazırlanır. Kəlbəcərdə Söyüdlüdə, Zəngilanda Vejnəlidə, başqa yerlərdə bizim qızıl yataqlarımız xarici şirkətlər tərəfindən istismar edilirdi. O şirkətlər bilmirdilər ki, bu, Azərbaycan torpağıdır? Bilirdilər! Amma buna məhəl qoymurdular. İndi cavab verəcəklər. Biz demişik, əgər istəmirlərsə ki, biz onları dünya miqyasında biabır edək, gəlsinlər, vurulmuş ziyanı bizə ödəsinlər, təzminat ödəsinlər və ondan sonra rahat yaşaya bilərlər.

Bizim meşələrimiz ermənilər tərəfindən məhv edilib. İndi bizim "Azərkosmos"un fotoları var - işğaldan əvvəl neçə min hektar meşə altında idi və indi nə qədərdir. Ağacla dolu olan altmış min hektara yaxın sahəni, meşə fondunu ermənilər dağıdıblar, yəni kəsiblər. Kəsiblər, talayıblar, aparıblar. Eşitdiyimə görə, orada parket işləri, bu biznes çox sürətlə gedirdi. Bu da talançılıqdır. Bu talançılığa görə də cavab verəcəklər. Bizim çaylarımızı zəhərləyiblər. Oxçuçay nə gündədir? Oxçuçay təbii fəlakətdir və onu zəhərləyən yenə də xarici şirkətdir. O şirkət də cavab verməlidir və verəcəkdir. Dəymiş hər bir ziyan hesablanır. Azad edilmiş bütün torpaqlarda, şəhərlərdə, kəndlərdə indi monitorinq aparılır, pasportlaşdırma aparılır, bütün evlərin pasportları hazırlanır, dəymiş ziyan təsbit edilir və biz beynəlxalq məhkəmələrdə dəymiş bütün ziyanın qaytarılmasını tələb edəcəyik.

Təbii sərvətlər talan edilib, istismar edilib, çaylarımız zəhərlənib, meşələrimiz qırılıb, evlərimiz dağıdılıb, məscidlərimiz sökülüb. Bunu kim edib? Ermənilər! Cavab verməlidirlər və verəcəklər.

Biz isə indi genişmiqyaslı bərpa işlərinə start verdik. O cümlədən Kəlbəcər və Laçın rayonlarında, Şərqi Zəngəzur regionunda. Artıq bu işlərin bir hissəsi bu gün qeyd olundu - yarımstansiya fəaliyyətə başladı, su elektrik stansiyasının tikintisi ilə tanış oldum, Laçın rayonunda beynəlxalq hava limanının təməli qoyuldu, iki tunelin təməli qoyuldu və digər infrastruktur layihələri artıq icra edilməkdədir. Eyni zamanda biz pilot layihələr kimi Kəlbəcər və Laçın rayonlarının arıçılıqla və heyvandarlıqla məşğul olan sakinlərini buraya göndərdik, ezam etdik, şərait yaratdıq ki, onlar işə başlasınlar və artıq bu işlərə də start verildi.

Biz, eyni zamanda, Kəlbəcər, Laçın istiqamətində dövlət sərhədimizi möhkəmləndiririk. Bu sərhəd 30 ilə yaxın müddət ərzində ermənilərin əlində idi və biz may ayında qarlar əriyəndən sonra bu sərhədlərə çıxmışıq, öz mövqelərimizi tutmuşuq, Zəngəzurda yerləşmişik və orada möhkəmlənirik. Bu, bizim torpağımızdır. Ermənistan tərəfindən səslənən fikirlər tamamilə əsassızdır. Biz öz torpağımızdayıq, Qaragöl də bizimdir, başqa yerlər də bizimdir. Biz gəlmişik. 30 il bu ərazi ermənilərin əlində idi. Əgər o sərhəd onların dediyi yerdən keçirdisə, durardılar o sərhəddə. Durardılar, deyərdilər ki, sərhəd budur. Nə oldu bəs? Biz gələndən sonra, durandan sonra dedilər ki, yox, biz düz yerdə durmamışıq. Biz düz yerdə durmuşuq, harada lazımdır, orada durmuşuq və əgər istəsək, harada lazım bilsək, orada da duracağıq. Onu heç kim unutmasın. Ona görə indi Müdafiə Nazirliyinin və Sərhəd Qoşunlarının xətti ilə bütün sərhəd boyunca - Murovdağdan ta Araz çayına qədər bütün sərhəd infrastrukturu, hərbi hissələr yaradılır, biz bu sərhədlərdə möhkəmlənirik.

Daxili əhəmiyyət daşıyan 700 kilometr uzunluğunda yolların çəkilişi prosesi gedir. Mən hələ əsas şəhərlərarası yolları kənara qoyuram, o layihələr haqqında kifayət qədər məlumat verildi. Bizim sərhədlərə gedən 700 kilometr yolların çəkilişi prosesi gedir və artıq qış gələnə qədər bu işin təqribən 80 faizi görüləcək. Yəni torpaq, çınqıl örtüklə döşənmiş yollar və bu, bizə imkan verəcək ki, həm hərəkət üçün, həm hərbi nöqteyi-nəzərdən bu bölgələrdə daha da möhkəmlənək. Əlbəttə ki, Azərbaycan-Ermənistan sərhədində biz söz sahibiyik. Bu, təbiidir və bundan sonra da söz sahibi olacağıq. Ona görə, bu məsələ ilə bağlı bəzən hansısa xarici dairələrdə də qeyri-adekvat fikirlər səsləndirilir. Buna ehtiyac yoxdur. Biz harada lazım bilmişiksə, orada da durmuşuq və əgər bu kimisə narahat edirsə, əgər kimsə əsəbləşirsə, necə deyərlər, getsinlər, su içsinlər.

Bildiyiniz kimi, mənim sərəncamımla 14 iqtisadi rayon yaradıldı. Onların arasında iki iqtisadi rayonun yaradılması diqqət çəkdi - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı. Hesab edirəm ki, bu da çox düzgün addımdır. Bu, həm tarixə əsaslanır, eyni zamanda, gələcəyə əsaslanır. Çünki həm Qarabağ, həm Zəngəzur bizim tarixi dədə-baba torpağımızdır. Qarabağ iqtisadi rayonunda bütün Qarabağ bölgəsinə aid olan rayonlar birləşdi. Şərqi Zəngəzur iqtisadi rayonunda Şərqi Zəngəzura aid olan rayonlar birləşdi. Qərbi Zəngəzur isə hazırda Ermənistanın nəzarəti altındadır. Ancaq Zəngəzur dəhlizinin çəkilişi nəticəsində əlbəttə ki, biz bu dəhlizdən istifadə edib öz vətəndaşlarımızı dədə-baba torpaqlarımıza qaytaracağıq. Belə planlar var və bu da təbiidir. Çünki bizim vətəndaşlar indiki Ermənistan ərazisindən, təkcə Zəngəzur mahalından yox, Göyçə mahalından da, - bura ilə həmsərhəddir, - zorla qovulmuşlar və onların tam haqqı var ki, gedib öz dədə-baba torpaqlarında yaşasınlar. Biz bunu sonrakı mərhələyə saxlayırıq.

İndiki mərhələdə bizim əsas vəzifəmiz müharibənin nəticələrini möhkəmləndirməkdir, azad edilmiş torpaqlarda möhkəmlənməkdir. Azərbaycan-Ermənistan sərhədində bundan sonra da mövqelərimizi gücləndirməkdir. Yenidənqurma, bərpa işlərinə artıq start verilib, bu da əsas vəzifələrdən biridir. Keçmiş məcburi köçkünləri azad edilmiş torpaqlara tədricən qaytarmaq da gündəlikdə duran məsələdir. Mən artıq bildirmişəm, Zəngilan rayonunda bir neçə aydan sonra artıq birinci qrup keçmiş köçkünlər yerləşəcək. Eyni zamanda Ağdam, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarında da pilot kəndlər seçildi. Artıq işlər gedir ki, o kəndlərin bərpasına start verək və vətəndaşları oraya qaytaraq. Ağdam şəhərinin baş planı təsdiqləndi, digər şəhərlərin baş planının təsdiqlənməsi yaxın aylarda nəzərdə tutulur.

Beləliklə, biz bundan sonrakı əsas hədəfləri düzgün müəyyən edərək, bu hədəflərə çatmağa da nail olacağıq. Biz bu gün buradayıq, Kəlbəcərdəyik, Azərbaycanın çox gözəl guşələrindən biri olan Kəlbəcərdəyik və biz bundan sonra burada əbədi yaşayacağıq. Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:** Kəlbəcər şəhəri. Yolun sağında da, solunda da bir dənə salamat bina yoxdur. Baxmayaraq ki, ermənilərin bir hissəsi Kəlbəcər rayonunda qanunsuz məskunlaşmışdılar. Ancaq azərbaycanlılara məxsus olan bütün evləri yerləyeksan ediblər. Bax, indiki Kəlbəcər şəhəri budur. Biz Kəlbəcər şəhərini də, kəndləri də yenidən quracağıq. Bax, bütün evlər dağılmış vəziyyətdədir.

*Ardı 8-ci səh.*









# BİZ GƏLDİK, BAYRAĞIMIZI UCALTDIQ!





*Əvvəli 7-ci səh.*

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Kəlbəcər şəhərindəki "N" saylı hərbi hissəyə gəldi.

Quru qoşunları komandanı general-mayor Ənvər Əfəndiyev Ali Baş Komandan İlham Əliyevə raport verdi.

- Cənab Ali Baş Komandan, quru qoşunlarının əməliyyat şəraitində dəyişiklik olmayıb, hadisə baş verməyib.

Prezident, Ali Baş Komandan hərbi hissədə yaradılan şəraitlə tanış oldu.

Qeyd edək ki, burada hərbi qulluqçuların xidməti yüksək səviyyədə aparması üçün hər cür şərait yaradılıb. Hərbi hissənin maddi-texniki təchizatı da ən yüksək səviyyədə həyata keçirilib. Bu da hərbi qulluqçularımıza Vətənin keşiyində hər zaman ayıq-sayıq durmağa, onu düşməndən layiqincə müdafiə etməyə imkan verir.











**Prezident İlham ƏLİYEV:** İndi isə biz İstisuya gəldik. İstisu sanatoriyasının dağılmış görüntüləri gözümüzün önündədir. Vəhşi düşmən buranı da söküb. Baxın, nə günə qoyub sanatoriya korpuslarını.

❖❖❖

Kəlbəcər faydalı qazıntı yataqları, səfalı təbiəti ilə yanaşı, İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə də məşhurdur. Erməni vandalları ərazilərimizi işğal etdikdən sonra oradakı təbii ehtiyatları da istismar ediblər. İndi "İstisu"ya öz əvvəlki şöhrətini qaytarmaq qarşıda duran vəzifələrdən biridir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərə səfər çərçivəsində "İstisu" sanatoriyasında da oldular.

İstisu kəndinin məşhur mineral suyu olan "İstisu" bulağı ətrafında 1928-ci ildə eyni adlı sanatoriyası salınıb. Kəlbəcər rayonu İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə bütün dünyada tanınıb. Mənbələrə görə, istisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ nəticəsində meydana çıxıb.

Öz kimyəvi tərkibinə və bir çox digər xüsusiyyətlərinə görə İstisuyun dünyada analoqu yoxdur. Burada suyun temperaturu müsbət 58,8 dərəcədir. Suyun temperaturu səthdə müsbət 74, dərinlikdə isə 90 dərəcəyə çata bilər. İstisu mineral bulaqları 12 bulaqdan ibarətdir.

**Prezident İlham ƏLİYEV:** Vəhşilər bu abidəni də söküblər. Qəribədir, burada "mir" yazılıb, bu abidə sülhü tərənnüm edirdi. Vəhşi düşmən bunu da sökübdür. Onu da söküb, bu binanı da söküb, hər tərəfi söküb. Biz bütün yerləri yenidən bərpa edəcəyik, yenidən həyat qayıdacaq.

Prezident İlham Əliyev burada uzunluğu 51 kilometr olan İstisu-Minkənd yolunun çəkilməsi işlərinə də baxdı.

**Prezident İlham ƏLİYEV** dedi: Bu, İstisu-Minkənd yoludur. Bu yol olmayıb, yenidən çəkilir, uzunluğu 51 kilometrdir. Kəlbəcərin İstisu qəsəbəsini Laçının Minkənd kəndi ilə birləşdirən yoldur. Bu, Kəlbəcər və Laçın rayonları arasında ikinci bağlantı olacaq. Hazırda bu yol boyunca işlər gedir, torpaq işləri başa çatıb. Bundan sonra asfalt qatı da vurulacaq. Beləliklə, biz növbəti yol infrastrukturunu yaradacağıq. Həm İstisuya Laçın Beynəlxalq Hava Limanından istifadə edərək gəlmək üçün rahat imkan olacaq, eyni zamanda, Kəlbəcərlə Laçın arasında ikinci yol bağlantısı olacaq. Bunun həm strateji, həm də hərbi əhəmiyyəti var. Eyni zamanda vətəndaşların rahatlığı, İstisu kurortunu yenidən bərpa etmək, müasir səviyyəyə gətirmək üçün bu yolun böyük əhəmiyyəti var. Bu yol layihəsi də uğurla icra edilir. Xəritədə də artıq yaşayış məntəqələrindən keçən yol göstərilir.



Beləliklə, Kəlbəcər və Laçın rayonlarına səfərimiz başa çatır. Səfər çox uğurlu idi. Bir çox önəmli obyektlərin açılışını etdik, təməlini qoyduq. Şərqi Zəngəzurun gələcək inkişafı ilə bağlı bütün işlər plan üzrə gedəcək və biz istəyimizə nail olacağıq.

Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!

❖❖❖

**Prezident İlham ƏLİYEV:** Heyvandarlar da Kəlbəcər yaylaqlarına qayıdıblar. Həm arıçıları, həm heyvandarlıqla məşğul olanları biz qaytarmışıq. Görürsünüz, onlar məskunlaşıblar. Qoyunları da burada otarırlar. Bu ənənə də bərpa edildi. İşğaldan əvvəl heyvandarlar həmişə buraya gəlirdilər. İndi bizi salamlayırlar. Biz də onları salamlayırıq. Xoş gəliblər öz Vətənlərinə.

Səma bizi yola salır, biz də Ömər aşırımına yaxınlaşırıq, qayıdırıq.

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və mülki işçilərinin təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

*Əvvəli 1-ci səh.*

Əliyev Nicat Vidadi oğlu - mayor
Əsədov Elməddin Kərim oğlu - mayor
Həsənli İlkin Cabir oğlu - mayor
İsakov Elnur Saleh oğlu - mayor
İsmayılov Qasım Əhməd oğlu - mayor
Məmmədov Eldəniz Nəriman oğlu - mayor
Seyidov Nihal Azər oğlu - mayor
Abdullayev Elvin Emin oğlu - kapitan
Babayev Faiq Nizami oğlu - kapitan
Eynullazadə Rəsul Asəf oğlu - kapitan
Hüseynov Elmir Rasim oğlu - leytenant
Dövlətov Vidadi Vəligulla oğlu - baş gizir
Əliyev Yasif Asif oğlu - baş gizir
Səfərov Elçin Əkbər oğlu - baş gizir
Cavadov Elnur Xudaverdi oğlu - gizir
Əliyev Samir Oktay oğlu - gizir
Hüseynov Alik Muğan oğlu - gizir
İsmayılov İlqar Tofiq oğlu - gizir
Kərimov Əhməd Şərif oğlu - gizir
Qurbanov Samir Şaban oğlu - gizir
Məmmədov Nail Həzrətqulu oğlu - gizir
Baxşiyev Vüsal Azad oğlu - kiçik gizir
Qurbanov Giya Eyvaz oğlu - kiçik gizir

**"Cəbrayılın azad olunmasına görə" medalı ilə**

Niftullayev Zaur Rəşidoviç - polkovnik
Şirinov Azər Əliyusif oğlu - polkovnik
Babayev Azər Fərhad oğlu - ədliyyə polkovnik-leytenantı
Əliyev Elnur Abutalıb oğlu - polkovnik-leytenant
Məmmədov Pərviz Şakir oğlu - polkovnik-leytenant
Cəfərov Natiq Famiq oğlu - ehtiyatda olan ədliyyə mayoru
Tağıyev Fazil Sülhi oğlu - mayor
Zülfüqarov Cəfər Əli oğlu - ədliyyə mayoru
Babayev Faiq Nizami oğlu - kapitan
Eynəliyev Tural İslam oğlu - ədliyyə kapitanı
Məmmədzadə Cavid Nəsir oğlu - ədliyyə kapitanı
Əliyev Nail Əli Əskər oğlu - gizir

**"Zəngilanın azad olunmasına görə" medalı ilə**

Behbudov Allahverdi Şahlar oğlu - polkovnik
Mustafayev Elman Tapdıq oğlu - polkovnik
Nəzərov Təyyar Şahmurad oğlu - polkovnik
Niftullayev Zaur Rəşidoviç - polkovnik
Şirinov Azər Əliyusif oğlu - polkovnik
Abbasov Aftandil Qabil oğlu - polkovnik-leytenant
Babayev Azər Fərhad oğlu - ədliyyə polkovnik-leytenantı
Bayramov Nəsimi Nəbi oğlu - polkovnik-leytenant
Məmmədov Pərviz Şakir oğlu - polkovnik-leytenant
Səidov Ceyhun Ağali oğlu - polkovnik-leytenant
Cəfərov Natiq Famiq oğlu - ehtiyatda olan ədliyyə mayoru
Tağıyev Fazil Sülhi oğlu - mayor
Babayev Faiq Nizami oğlu - kapitan
Məmmədzadə Cavid Nəsir oğlu - ədliyyə kapitanı
Kərimli Bəxtiyar Ağa oğlu - tibb xidməti leytenantı
Vəliyev Mehman Bəxtiyar oğlu - baş miçman
Əliyev Nail Əli Əskər oğlu - gizir
Kamilov Elxan Etibar oğlu - miçman.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2021-ci il*

## Anadolu Agentliyi Azərbaycan Prezidentinin Kəlbəcər və Laçın rayonlarına səfəri ilə bağlı videomaterial yayıb

Türkiyənin Anadolu Agentliyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın avqustun 16-da Kəlbəcər və Laçın rayonlarına səfəri ilə bağlı videomaterial yayıb.

AZƏRTAC xəbər verir ki, videomaterialda dövlətimizin başçısı İlham Əliyevin öz səsi ilə səfər və onun təfərrüatı barədə türkdilli ictimaiyyətə məlumat çatdırılır. Bölgənin füsunkar gözəlliyi, Prezidenti İlham Əliyevin Kəlbəcərdə Dövlət bayrağımızı yüksəltməsi, dövlət başçısının yerli sakinlər, eləcə də arıçılarla görüşü və səmimi söhbəti orijinal kadrlar əsasında materialda əksini tapıb.




## Azərbaycanın müdafiə naziri "IDEF-2021" sərgisinin açılış mərasimində iştirak edib






Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın dəvəti ilə avqustun 17-də İstanbulda keçirilən "IDEF - 2021" Beynəlxalq Müdafiə Sərgisinin təntənəli açılış mərasimində iştirak edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildiriblər ki, general-polkovnik Zakir Həsənov sərgidə müxtəlif şirkətlərin istehsalı olan silah, texnika və hərbi təyinatlı vasitələrə baxış keçirib.

Səfər çərçivəsində general-polkovnik Z.Həsənov Türkiyə Müdafiə Sənayesinin "ASELSAN", "ROKETSAN", "HAVELSAN", "ASPİLSAN" və digər şirkətlərinin rəhbərləri ilə görüşlər keçirib.

Görüşlərdə tərəflər hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

***AZƏRTAC***

## İstanbulda "IDEF-2021" sərgisində Azərbaycanın müdafiə sənayesinin istehsalı olan 133 adda məmulat nümayiş etdirilir

Avqustun 17-də İstanbulda Türkiyə Respublikası Prezident Administrasiyasının himayəsi və Milli Müdafiə Nazirliyinin təşkilatçılığı ilə "IDEF-2021" Beynəlxalq Müdafiə Sənayesi Sərgisi keçirilir.

Müdafiə Sənayesi Nazirliyindən (MSN) AZƏRTAC-a bildiriblər ki, avqustun 20-dək davam edəcək sərgidə Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti də iştirak edir.

Dünyanın inkişaf etmiş 50-dən çox ölkəsindən 1000-dən çox qabaqcıl şirkətin qatıldığı "IDEF-2021" Beynəlxalq Müdafiə Sənayesi Sərgisində MSN-in müəssisələrində istehsal edilən müdafiə təyinatlı məmulatlar - snayper tüfəngləri, avtomatlar, hücum pulemyotları, qumbaraatanlar, minaatanlar, pilotsuz uçuş aparatları, müxtəlif çaplı döyüş sursatları və s. olmaqla 133 adda məmulat nümayiş olunur.

Sərgi zamanı müdafiə sənayesi naziri Mədət Quliyevin Türkiyənin dövlət və hökumət nümayəndələri, sərgidə iştirak edən bir sıra ölkələrin nümayəndə heyətlərinin rəhbərləri və aparıcı şirkətlərin təmsilçiləri ilə görüşləri də nəzərdə tutulub.

"IDEF-2021" Beynəlxalq Müdafiə Sənayesi Sərgisi işini avqustun 20-dək davam etdirəcək.

## Müdafiə sənayesi naziri Türkiyədə bir sıra görüşlər keçirib

Azərbaycanın müdafiə sənayesi naziri Mədət Quliyev İstanbulda keçirilən "IDEF-2021" Beynəlxalq Müdafiə Sənayesi Sərgisi çərçivəsində Türkiyənin Müdafiə Sənayesi Komitəsinin sədri İsmail Demir ilə görüşüb.

Müdafiə Sənayesi Nazirliyindən bildiriblər görüşdə iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlığın perspektivlərinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

Görüş konstruktiv və qarşılıqlı anlaşma şəraitində keçib.

* * *

Azərbaycanın müdafiə sənayesi naziri Mədət Quliyev İstanbulda keçirilən "IDEF-2021" Beynəlxalq Müdafiə Sənayesi Sərgisi çərçivəsində Belarusun Müdafiə Sənayesi Komitəsinin sədri Dmitri Pantus ilə görüşüb.

Müdafiə Sənayesi Nazirliyindən bildiriblər ki, görüşdə iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlığın perspektivlərinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

Söhbət zamanı bir sıra digər məsələlər də müzakirə edilib.

***AZƏRTAC***

## Azərbaycan erməni faşizminin təzədən baş qaldırmasına imkan verməyəcək

### Yeni müharibə məğlub Ermənistanın sonu olacaq

Ermənistan sülh çağırışlarına məhəl qoymayaraq bölgədə yenidən vəziyyəti gərginləşdirməyə cəhd göstərir. Münaqişələr törətməyi özünün dəyişməz "vərdiş"inə çevirən bu ölkə son günlər sərhədyanı ərazilərdən Azərbaycanın hərbi mövqelərini atəşə tutmaqla təxribatlar həyata keçirir.

Azərbaycan Ordusu hazırda əməliyyat şəraitinə nəzarət edərək düşmənin bütün təxribatlarının qarşısını alır. Dövlətimizin hərbi gücü Ermənistanı yerləyeksan etməyə belə qadirdir. Lakin Azərbaycan sülhə tərəfdardır. Ölkəmizin əsas gözləntisi ötən ilin 10 noyabrında imzalanmış üçtərəfli bəyanatın bütün müddəalarının yerinə yetirilməsi, Rusiyanın bölgənin təhlükəsizliyi üçün öz səylərini əsirgəməməsi və Ermənistanın digər ölkələr tərəfindən silahlandırmamasıdır.

Bəzi dövlətərin dəstəyi ilə yenidən müharibə "həvəs"inə düşən Ermənistana isə Azərbaycan Prezidenti İlham Əliyev bir daha xəbərdarlığını edib. Türkiyənin "CNN Türk" televiziyasına verdiyi müsahibəsində dövlət başçısı deyib: "Nədir, Ermənistan yeni müharibəyəmi hazırlaşır?! Əgər belədirsə, onda biz qabaqlayıcı tədbirlər görəcəyik. Mən bunu demişdim və bir daha demək istəyirəm, əgər yenə də erməni faşizmi baş qaldırmağa cəhd belə göstərsə, biz onun başını bir daha əzəcəyik. İkinci Qarabağ müharibəsindəki məğlubiyyət onlar üçün dərs olmalıdır".

Görünən odur ki, cəmi 10 ay əvvəl bir dövlət kimi yox olmaq təhlükəsi ilə üz-üzə qaldığını unudan bu terror yuvası aldığı dərsdən hələ də nəticə çıxara bilməyib. İkinci Qarabağ müharibəsində ağır məğlubiyyətə uğramış Ermənistanın rəsmi mənbələri bu savaşda 4000-ə yaxın hərbçinin həlak olduğunu, 300-dən çox hərbçinin isə itkin düşdüyünü açıqlasa da, əslində, bu rəqəmlər daha böyükdür. Hətta o dərəcədə ki, əhalisinin sayı onsuz da az olan bu ölkə çoxlu insan itkisi ilə nəticələnmiş müharibənin demoqrafik vəziyyətə təsirlərini hələ uzun müddət hiss edəcək.

Milli Məclisin deputatı, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Elşad Mirbəşiroğlu vəziyyətin gərginləşməsində Qərb amilinin xüsusi rolunun olması qənaətindədir. Onun fikrincə, Ermənistanın baş naziri Nikol Paşinyan Qərbin təlimatlarına uyğun olaraq, vəziyyəti gərginləşdirmək üçün əlindən gələni edir. Elşad Mirbəşiroğlu hesab edir ki, birgə bəyanatın sadəcə kağız üzərində qalması üçün Qərbin ciddi siyasi və maliyyə resursları səfərbər etdiyi göz önündədir. ATƏT-in Minsk qrupunun həmsədrləri olan ABŞ və Fransa tənzimləmənin birbaşa digər həmsədr ölkənin - Rusiyanın vasitəçiliyi ilə edilməsini heç bir halda qəbul etmək istəmir. Münaqişənin indiki şərtlər daxilində aradan qalxması digər həmsədrlərin regionda mövcudluğunu əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Bu baxımdan Ermənistanı təxribatlara sövq etməklə münaqişənin hələ də davam etdiyi təəssüratı yaradılmaqdadır. Qərb dairələrinin düşüncəsinə görə, belə olan halda "tənzimləmə" məsələsini aktuallaşdırmaq və Minsk qrupunu yenidən proseslərə cəlb etmək olar: "Paşinyanın hökumətin sonuncu iclasında səsləndirdiyi fikirlər də aydın göstərir ki, təlimatlar Qərbdən gəlir və əsas hədəf ATƏT-in Minsk qrupu platformasında yenidən müzakirələrə nail olmaqdır. Paşinyanın Azərbaycanla danışıqlara hazır olduğunu bildirməsi də konstruktivlikdən xəbər vermir. Bu, əksinə, siyasi təxribatların daha intensivləşdirildiyini göstərir. Çünki təcavüzkar Ermənistanın baş naziri məhz münaqişənin tənzimlənməsi istiqamətində Azərbaycanla danışıqlara hazır olduğunu bildirir. Əlavə olaraq da ATƏT-in Minsk qrupundan təkliflər gözlədiyini dilə gətirir. Göründüyü kimi, belə yanaşma tərzi Paşinyan kimi dar siyasi təfəkkürə malik olan birisinə aid ola bilməz. Qərbin təlimatlarına uyğun mövqe sərgiləyən Paşinyan vəziyyətin gərginləşərək açıq münaqişə həddinə çatması üçün əlindən gələni etməkdədir".

Elşad Mirbəşiroğlu bildirir ki, Ermənistan təxribatlar törətməklə Azərbaycanın daha sərt cavab reaksiyasına nail olmağa çalışır. Bununla KTMT-in proseslərə qoşulması üçün əsas yaranmasını istəsə də, əslində onların əsl məqsədi bu da deyil: "Əksinə, təşkilatın real olaraq, proseslərə qoşulması Paşinyana təlimatlar verən Qərb dairələrinin maraqları ilə ziddiyyət təşkil edir. Belə olan halda strateji məqsəd bütün vəziyyətlərdə KTMT-dən imtina almaqla, erməni cəmiyyətində antirusiya meyilliliyini gücləndirməkdir. İctimai rəy də Qərbin tərəfində olduqda Ermənistanın Rusiyanın təsir dairəsindən uzaqlaşması üçün əlavə təsir elementi yaranmış olacaq. Avropa İttifaqının Ermənistana az qala onun büdcəsi qədər maliyyə yardımı ayırması da birbaşa geosiyasi hədəflərə hesablanıb".

Deputatın qənaətinə görə, çox istiqamətli strateji-taktiki addımları ilə torpaqlarımızın işğaldan azad edilməsinə nail olan Prezidenti İlham Əliyevin Cənubi Qafqaz regionunda yaratdığı yeni geosiyasi reallıqlardan bəlli dairələrin narazı qalacağı gözlənilən idi: "Sirr deyil ki, istənilən coğrafiyada münaqişənin olması ora daha rahat müdaxilə imkanı yaradır. Ermənistan-Azərbaycan münaqişəsinin uzun illər həllini tapmamasının başlıca səbəbi də məhz münaqişənin tənzimlənməsi prosesində vasitəçiliyi həyata keçirmiş ATƏT-in Minsk qrupunun geosiyasi mübarizəsi oldu. Həmsədrlər münaqişənin tənzimlənməsi istiqamətində təsirli addımlar atmaq əvəzinə bu tənzimlənmə prosesini öz nəzarətlərində saxlamaq üçün fəallıq göstərirdilər".

E.Mirbəşiroğlunun fikrincə, hazırda da ATƏT-in Minsk qrupunun prioriteti münaqişənin tənzimlənməsi deyil, onun davam etməsinə nail olmaqdır. Çünki imzalanmış birgə bəyanatın şərtlərinə əməl olunması postmünaqişə mərhələsində sülhə və təhlükəsizliyə xidmət edəcək növbəti elementləri yarada bilər.

Milli Məclisin deputatı, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Aydın Mirzəzadə də deyir ki, Azərbaycan bugün hərbi əməliyyatların, qarşıdurmanın olmasında maraqlı deyil. Amma qarşı tərəf Azərbaycana qarşı hərbi təxribatlarından əl çəkmədiyi üçün vəziyyətin normallaşması vacibdir.

Azərbaycanın hazırkı gərginlikdən rahatsız olduğunu deyən Aydın Mirzəzadə hesab edir ki, ermənilərin hərbi mövqelərimizə atəş açması Azərbaycanın suveren hüquqlarını qoruması üçün çox ciddi addımlar atmasına səbəb ola bilər.

Deputat ermənilərin hazırkı əməllərini terrorçuluq sayır. O qeyd edir ki, ermənilərin indiki addımları Azərbaycanın suveren ərazisində hərbi hakimiyyətə tabe olmayan hərbi birləşmələrin dövlətə qarşı hərbi əməliyyatlarıdır. Buna görə məsuliyyəti həm ermənilər, həm də Rusiya sülhməramlıları daşıyır. Çünki sülhməramlıların vəzifəsi nəzarəti altında olan ərazilərdə hərbi əməliyyatların aparılmasına yol verməməkdir: "Ermənilər öz praktikalarını dəyişiblər, amma bu dəyişiklik heç də onların Azərbaycanla münasibətlərini normal hala yönləndirmir. Onlar artıq Rusiya sülhməramlılarının nəzarəti altında olan ərazilərdən, sülhməramlıların arxasında gizlənərək Azərbaycanın hərbi nöqtələrinə atəş açırlar. Hazırkı vəziyyət situasiyanı kökündən dəyişir. Çünki artıq müharibə qurtarıb, Azərbaycan və Ermənistan postmüharibə dövrünü yaşayır".

Azərbaycan postmüharibə dövründə azad edilmiş ərazilərdə sürətlə quruculuq işlərinin aparılması ilə məşğul olsa da, Ermənistan münaqişənin yenidən alovlandırılması ilə məşğuldur. Bu ölkə Azərbaycana qarşı təxribatlarını getdikcə daha da intensivləşdirir. Son baş verənlər də onu göstərir ki, Ermənistan 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatın müddəalarına könüllü şəkildə əməl etmək istəmir. Beynəlxalq hüququn norma və prinsiplərini tanımayan Ermənistan bölgədəki sülh üçün yenə də təhdid yaradır. Azərbaycan bu təhdidlərin, eləcə də suverenliyimizə qarşı həyata keçirilən bütün təxribatların qarşısını ən sərt formada ala bilmək gücündədir. Ermənilər əslində bunu bilirlər və 44 günlük Vətən müharibəsində bunun canlı şahidi olublar.

Ermənistan Cənubi Qafqazda sülhün, sabitliyin və inkişafın davamlı olmasını təmin etmək üçün üçtərəfli bəyanatın müddəalarına şərtsiz əməl etməlidir. Bu terrorçu dövlətin yeni reallıqları qəbul etməsi üçün bütün region ölkələri də öz prinsipial mövqeylərini ortaya qoymalı və Ermənistanı üzərinə düşən bütün öhdəlikləri yerinə yetirməyə məcbur etməlidirlər.

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***

## FHN-in Türkiyədəki qüvvələrinə rəhbərlik edən nazir müavini Azərbaycana qayıdıb

Türkiyədə baş vermiş meşə yanğınları ilə mübarizə məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, qardaş ölkəyə göndərilmiş Azərbaycan Fövqəladə Hallar Nazirliyinin (FHN) yanğın-xilasetmə qüvvələri hissə-hissə ölkəmizə qayıdır.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin Türkiyədəki qüvvələrinə rəhbərlik etmiş fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyev avqustun 17-də Azərbaycana qayıdıb.

Xatırladaq ki, qüvvələrin şəxsi heyəti dünən iki qrupda qardaş ölkədən təyyarə ilə geri qayıdıb. Texnikalar və şəxsi heyətin digər hissəsi isə quru yolla hazırda Azərbaycana doğru hərəkət edir.

## Azərbaycan sülhməramlıları təyin edilmiş tapşırıqları icra edir



Əfqanıstan İslam Respublikasının Kabil Beynəlxalq Hava Limanında xidməti vəzifələrini yerinə yetirən Azərbaycan sülhməramlılarının ümumi vəziyyəti sabitdir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sülhməramlılarımız hazırda onlar üçün müəyyən olunmuş sektorda mühafizə və müdafiə tapşırıqlarını yerinə yetirirlər.

Azərbaycan Ordusunun 120 nəfərdən ibarət sülhməramlı bölməsi Türkiyə qüvvələri ilə birlikdə hava limanının təhlükəsizliyini təmin etmək məqsədilə xidməti vəzifələrinin icrasını davam etdirir.

## Ermənistan silahlı qüvvələri tərəfindən müxtəlif istiqamətlərdə mövqelərimiz atəşə tutulub

Avqustun 17-si saat 10:55-dən 14:20-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsində yerləşən mövqelərindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini fasilələrlə snayper tüfəngi, avtomat və pulemyotlardan atəşə tutub.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, bundan əlavə saat 11:18-dən 13:37-dək Çəmbərək rayonunun Göysu və Şişqaya yaşayış məntəqələrində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qalakənd və Kəlbəcər rayonunun İstisu yaşayış məntəqələri istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqeləri fasilələrlə müxtəlif çaplı silahlardan atəşə tutulub.

Cavab atəşi ilə qarşı tərəf susdurulub.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

## "Tank biatlonu" müsabiqəsində iştirak edən komandaların püşkatması olub

Rusiyanın Alabino hərbi poliqonunda "Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində təşkil olunacaq "Tank biatlonu" müsabiqəsində iştirak edəcək komandaların püşkatma mərasimi keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, komandaların rəhbərləri, məşqçilər və tank heyətlərinin üzvlərinin də iştirak etdikləri tədbirdə püşkatmanın nəticələrinə əsasən, Azərbaycan tankçıları avqustun 24-də yarışların üçüncü günündə çıxış edəcəklər.

Komandamız Belarus, Qazaxıstan və Serbiyadan olan tank heyətləri ilə yarışacaq.



## "Tank biatlonu"nda iştirak edən Azərbaycan tankçıları döyüş maşınlarının texniki vəziyyətini yoxlayıblar

"Beynəlxalq Ordu Oyunları-2021" yarışları çərçivəsində keçiriləcək "Tank biatlonu" müsabiqəsində iştirak edən komandalar püşkatmaya əsasən, idarə edəcəkləri tanklara baxış keçiriblər.





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tank heyətləri və texniki dəstək qrupu döyüş maşınlarının mühərrikləri, idarəetmə sistemləri və rabitə vasitələrinin texniki vəziyyətini yoxlayıblar.

Azərbaycan tankçıları avqustun 24-də Belarus, Qazaxıstan və Serbiyadan olan tank heyətləri ilə yarışacaqlar.

Müsabiqə sentyabrın 4-dək davam edəcək.

# QHT rəhbərləri Ağdamda erməni vəhşiliyini öz gözləri ilə görüblər

Avqustun 17-də Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının (QHT) rəhbərləri işğaldan azad olunmuş Ağdam şəhərinə səfər ediblər.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyəti əvvəlcə Pənahəli xanın Ağdam şəhərində yerləşən imarəti və İmarət stadionu ilə tanış olublar. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov ermənilərin vəhşiliyinə məruz qalan tikili barədə məlumat verib. Bildirilib ki, erməni vandalizmi təkcə yaşayış yerlərindən deyil, Azərbaycanın tarixi abidələrindən də yan keçməyib.

Sonra qonaqlar şəhər mərkəzində yerləşən Ağdam Cümə məscidini ziyarət ediblər. Qeyd edilib ki, digər tarixi abidələrimiz kimi, 1868-ci ilin yadigarı olan Ağdam məscidi də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra talan olunub, yandırılıb. Binanın minarələrinin uçurulmamasına səbəb isə erməni işğalçılarının buradan müşahidə məntəqəsi kimi istifadə etməsi olub. Məhz Cümə məscidinin minarələrindən ətrafı asan müşahidə etmənin mümkünlüyü tarixi abidənin xilasına səbəb olub. Buna baxmayaraq, bütün müqəddəs məkanlarımız kimi, bu məscidin də ibadət zalından erməni vandalları heyvan saxlamaq üçün istifadə ediblər.

Həmçinin səfər iştirakçıları erməni vəhşiliyi nəticəsində yerləyeksan edilən Ağdam şəhərinin dağıntıları ilə tanış olublar. Şəhər Dram teatrının salamat qalan bir divarına baxış keçirilib.

Daha sonra səfər iştirakçıları Ağdamın Qiyaslı kənd məscidinə gəliblər. Məlumat verilib ki, dini adətləri heçə sayan və barbarlıq nümayiş etdirən ermənilər Qiyaslı məscidindən də tövlə kimi istifadə edib.

Səfər planına uyğun olaraq, nümayəndə heyəti Şahbulaq qalasına da baş çəkiblər. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bildirib ki, XVIII əsrə aid bu qala Qarabağ ərazisindəki ən məşhur abidələrdən biridir. Ağdam şəhərinin 10 kilometrliyində, Şahbulaq kəndi yaxınlığında yerləşən qala 1751-1752-ci illərdə Qarabağ xanlığının banisi Pənahəli xan tərəfindən inşa edilib. Elmi ədəbiyyatda "Şahbulaq qəsri" adı ilə tanınan abidə, əslində, iri qəsr kompleksinin iç qalası olub. Kompleks yaşayış evlərindən, bazar, hamam və məsciddən ibarət idi.







Pənahəli xan Şuşa qalasını inşa edənədək Şahbulaq qalası Qarabağ xanlığının inzibati mərkəzi olub. Ermənilər Ağdamı işğal etdikdən sonra bir sıra abidələrimiz kimi, Şahbulaq qalasını da erməniləşdirməyə çalışıb, yaxınlıqdakı məscidi isə kilsə kimi təqdim ediblər.

Daha sonra QHT rəhbərləri Ağdam şəhərinin mərkəzində inşaat işlərinin aparıldığı əraziyə gəliblər.

Ağdam şəhərinin Baş planı çərçivəsində həyata keçiriləcək quruculuq işləri barədə ətraflı məlumat verilib. Bildirilib ki, Prezident İlham Əliyev mayın 28-də Ağdama səfəri zamanı avtomobil yolunun, yaşayış binasının, Sənaye Parkının, 1 saylı məktəbin yeni binasının təməlini qoyub, park-meşədə ağac əkib. Baş plana əsasən Ağdam şəhərinin ərazisi 1750 hektar, şəhərətrafı bağlar 2450 hektar olacaq. Burada ağıllı və dayanıqlı sosial infrastruktur yaradılacaq. Şəhərdə 15 məktəb və uşaq bağçasının inşası nəzərdə tutulub. Məktəb və uşaq bağçalarının əhatə dairəsi 500 kvadratmetr təşkil edir.

Ağdamda ilkin olaraq şəhər sakinləri və qonaqlar üçün 125 hektarlıq böyük meşə parkı salınacaq. Bərpa olunacaq Ağdam kanalı şəhərin içindən keçəcək və onun suyu burada yaradılacaq gölə töküləcək. Həmçinin Ağdamda Sənaye Parkı da yaradılacaq. Park qida sənayesi, kiçik sənaye və xidmət, iri sənaye müəssisələri, sosial və texniki zonalar, TIR parkı, tikinti materiallarının satışı bazası hissələrinə bölünəcək.

QHT rəhbərləri Ağdam şəhəri üçün yeni məscid nümunələri, bina tipologiyaları və şəhərətrafı obyektlər, yolnəqliyyat infrastrukturu ilə tanış olublar. Diqqətə çatdırılıb ki, Qafqazın Xirosiması kimi tanınan Ağdam Azərbaycan Prezidentinin və hökumətinin təşəbbüsü ilə regionun ən gözəl şəhərlərindən birinə çevriləcək, doğma yurdlarından 30 il ayrı qalmış insanların bu torpaqlara təhlükəsiz şəraitdə qayıdışı təmin ediləcək.





## Respublika Qadınlar Cəmiyyətinin sədr müavini: "Ağdamda yenə də öz firavan həyatımızı quracağıq"

"Mən bu viran qoyulmuş torpağın, Ağdamın sakiniyəm. 1993-cü ildən bu torpağımıza həsrət idim, ayaqlarım bu yerlərə dəymirdi. İndi sevincimi, hisslərimi heç cür izah edə bilmirəm. Mənim valideynlərim bu torpağın həsrəti ilə həyata gözlərini yumdular. Bu gün Ağdam Cümə məscidinin önündən torpaq götürüb, onların məzarlarına aparıb səpəcəyəm".



Bu sözləri AZƏRTAC-a açıqlamasında avqustun 17-də Ağdamda səfərdə olan Respublika Qadınlar Cəmiyyətinin sədr müavini Vəfa Abbasova söyləyib.

O deyib: "Prezidentimizə, müzəffər Ordumuza, qəhrəman oğlanlarımıza bu həsrətə son qoyduqları üçün təşəkkürümü bildirirəm. Ağdam Cümə məscidini ziyarət etmək mənim ən böyük arzularımdan biri idi. Bu gün mən Ağdamı yox, vandallar tərəfindən dağıdılmış, viran qalmış torpaqları gördüm. Bu cinayət insanlığa sığmır. Həmişə Məhərrəmlik ayında bu məscidə çoxlu insan yığışardı. Amma indi görürük ki, erməni vandalları burada heyvan saxlayıblar. Hansı dində var ki, digər dinə belə hörmətsiz yanaşasan? Düşmənin mənsub olduğu xristianlıqda da belə bir şey yoxdur. Bu, bir daha göstərir ki, ermənilərin nə dini var, nə də insanlığı".

Vəfa Abbasova əminliyini bildirib ki, Ağdamda aparılan yenidənqurma işləri tezliklə başa çatacaq. "Biz Ağdamda yenə də öz firavan həyatımızı quracağıq. Arzu edirəm ki, buraya qayıdaraq psixoloq fəaliyyətimi davam etdirim. Bu, qürurverici hissdir. Mən bütün şəhidlərimizin anaları qarşısında baş əyirəm, bütün qazilərimizə cansağlığı arzu edirəm. Qarabağ Azərbaycandır!", - deyə o vurğulayıb.

## Mətanət ƏSGƏRQIZI: "Xalqımız Ali Baş Komandanımızın ətrafında bir yumruq kimi birləşərək düşmənə yerini göstərdi"

"Ağdama səfər edəcəyimi biləndə gecə gözlərimə yuxu getmədi. Artıq bu gün Ağdamdayam. Həm kədərlidir, həm də çox sevinclidir. Özümü çox xoşbəxt hiss edirəm ki, işğaldan azad olunmuş torpağımızdayam. Bu hissləri anlatmaq çox çətindir".



Bu sözləri AZƏRTAC-a açıqlamasında avqustun 17-də Ağdamda səfərdə olan Əsgər Ailələrinə Dəstək İctimai Birliyinin sədri Mətanət Əsgərqızı söyləyib.

O deyib: "Düzdür, yol boyu düşmənin Ağdamı nə günə qoyduğunu gördük, ürəyimiz ağrıdı. Bu kadrları televiziyalardan, internetdən izləsək də, canlı görmək başqadır. Düşmən unudub ki, Azərbaycan xalqı necə güclü xalqdır. Xalqımız Ali Baş Komandanımızın ətrafında bir yumruq kimi birləşərək düşmənə yerini göstərdi. Viran qoyulmuş bu torpaqlarımızda indi quruculuq işləri start götürüb. Avtomobildə gələrkən də düşünürdüm ki, inşallah, Ağdam yenidən qurulandan sonra bura köçüm və öz fəaliyyətimi burada davam etdirim. Ağdama öz təşkilatımla gələcəyəm və azad olunmuş torpaqlarımızda işimizi quracağıq, quruculuq işlərində də iştirak edəcəyik. Bu günləri bizlərə yaşatdığına görə Prezidentimizə çox minnətdaram".

## QHT rəhbəri: "Ağdamın, digər torpaqlarımızın bərpa olunmasında QHT-lər də üzərinə düşən işi şərəflə yerinə yetirəcəklər"

"Ağdamda olmağımızdan çox şadıq. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuz torpaqlarımızı yağı düşməndən azad edib. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə isə şəfa versin. Mənim uşaqlığım Ağdamda keçib, İmarətdə Qarabağın oyunlarına çox baxmışıq".



Bu sözləri AZƏRTAC-a avqustun 17-də Ağdamda səfərdə olan Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənli söyləyib.

QHT rəhbəri deyib: "Şükürlər olsun ki, bu günləri gördük. Qarışıq hisslər keçirirəm. Bir tərəfdən məğruruq - torpaqlarımız azad edilib, digər tərəfdən də bu yerlərin halına baxanda hansı vəhşi qəbilə ilə qonşu olduğumuzu bir daha xatırlayır və hiddətlənirik. Düşmən havadarlarının köməyi ilə bu torpaqları 30 il işğal altında saxladı. Biz bunu yaddan çıxarmayacağıq. Biz tariximizi unutmamalıyıq. Bu həqiqətləri əsrlərboyu yadda saxlamalı, özümüzdən sonrakı nəsillərə ötürməliyik. Bu, hər bir vətəndaşın, hər bir jurnalistin, hər bir QHT-nin işi olmalıdır. 1918-ci ildə olanları unutduq, 1948-1953-cü illərin hadisələrini yaşadıq. Onu da unutduq, 1988-ci ilin hadisələri ilə üz-üzə qaldıq. Onda dövlətimiz yox idi, amma indi qüdrətli dövlətimiz var və tariximizi heç zaman unutmamalıyıq. Nə bu qəhrəmanlıq dastanını, nə də erməni vəhşiliyini unutmamalıyıq. Səfərimizin məqsədi erməni vəhşiliyini gözlərimizlə görmək, bu vandalizmi müxtəlif dillərdə dünyaya çatdırmaqdır. Qoy dünya görsün ki, biz necə bir terrorizmə, soyqırımına, hansı barbarlığa məruz qalmışıq".

O, Ağdamın tezliklə dünyanın ən gözəl şəhərlərindən biri olacağına əminliyini bildirib. "Qarabağ" komandası yenə burada futbol oynayacaq. Ağdam əvvəlkindən daha əzəmətli olacaq. Bizlər də Azərbaycan vətəndaşı, eyni zamanda, QHT olaraq hər zaman bu məsələlərdə vətəndaşlıq mövqeyindən çıxış etmişik, dövlətimizin yanında olmuşuq, Prezidentimizin siyasətini dəstəkləmişik. Buradakı quruculuq işində də yaxından iştirak edəcəyik. Ağdamın, digər torpaqlarımızın bərpa olunmasında QHT-lər də üzərinə düşən işi şərəflə yerinə yetirəcəklər. Necə ki, Vətən müharibəsində bütün Azərbaycan xalqı "dəmir yumruq" ətrafında birləşərək torpaqlarımızı işğaldan azad etdi, bir bayraq ətrafında birləşdi, quruculuq işləri də eyni birlik altında aparılacaq. Qarabağ dünyanın ən gözəl bölgələrindən biri, cənnət məkan olacaq".

"Vətən müharibəsi onu göstərdi ki, Azərbaycan əsgəri qəhrəmandır, dünyanın ən güclü əsgəridir. Əsgərlərimizlə fəxr edirik! Eşq olsun Azərbaycan Prezidentinə, eşq olsun Azərbaycan xalqına, eşq olsun Azərbaycan Ordusuna!", - deyə o əlavə edib.

## Faiq İSMAYILOV: "Ağdamda dövlət qeydiyyatında olan 93 abidədən çox az qismi salamat qalıb"



"Ağdamda mənim diqqətimi ən çox çəkən mədəni irs nümunələrimizdir. Bu dağıntılar mənim üçün yeni deyil. Dağıdılmış mədəni irs nümunələrimizə aid uzun illər materiallar toplamışam. Bu abidələrin məhv edilməsi yolverilməzdir. 2011-ci ildə həm Ağdam Cümə məscidinin, həm də Şahbulaq qalasının vandalizmə məruz qoyulmasına görə Ermənistanı məhkəməyə vermişik. Biz onların vandallığını sübut etmək üçün kifayət qədər material yığmışıq".

Bu sözləri AZƏRTAC-a açıqlamasında avqustun 17-də Ağdamda səfərdə olan Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Faiq İsmayılov söyləyib. O deyib: "Ağdam kifayət qədər tarixi əhəmiyyətə malik yerdir. Burada 5 məscidimiz ermənilər tərəfindən tamamilə məhv edilib. Dövlət qeydiyyatında olan 93 abidədən çox az qismi salamat qalıb. Ağdamda artıq yenidənqurma işləri başlayıb və güman edirəm ki, burada işləyən, çalışan hər bir əməkdaş təlimatlandırılmalıdır. Çünki burada qazıntı işləri aparılan zaman tarixi əhəmiyyət daşıyan əşyalar və s. tapıla bilər".

Ermənilərin Şahbulaq qalasında təmir işləri apararaq bir hissəsini dağıtdıqlarını, özlərindən əlavələr etdiklərini bildirən F.İsmayılov qeyd edib ki, bu abidələr yenidən öz görkəminə qaytarılmalı və bu yerlərə turistlər cəlb olunmalıdırlar. Qoy, hər kəs düşmənin niyyətini görsün. Görsün ki, onlar Azərbaycanın tarixi-mədəni abidələri hesabına özlərinə tarix düzəltmək istəyirlər.

## İctimai Birlik sədri: "Vaxt gələcək dədə-baba torpaqlarımız olan Zəngəzura, Göyçəyə də səfər edəcəyik"

"Mən Ağdam torpağına ilk dəfədir ayaq basıram. İnsan çox qarışıq hisslər keçirir. Əlbəttə, həm sevinir, həm də kədərlənirsən. Burada erməni vəhşiliyini gördük. Xurşidbanu Natəvanın qəbrini belə, dağıdıblar. Dünya çox vəhşiliklərə şahidlik edib. Amma bu miqyasda bütöv bir xalqa total nifrət hissi, dəhşətli dağıntılar, vəhşilik, demək olar ki, heç bir ölkədə baş verməyib. Biz bu ərazidə bir daha gördük ki, necə vəhşi, murdar bir düşmənlə üz-üzəyik".



Bu sözləri AZƏRTAC-a açıqlamasında avqustun 17-də Ağdamda səfərdə olan Demokratik Azərbaycan Naminə İctimai Birliyinin sədri Elməddin Behbud söyləyib.

O deyib: "Bu gün sevincimizin həddi-hüdudu yoxdur. Biz bu torpaqlar uğrunda canını fəda edən şəhidlərimizin ruhu qarşısında baş əyirik. Ali Baş Komandanımıza, Azərbaycan Ordusuna təşəkkür edirik. Təşəkkür edirik ki, xalqımızın 30 illik həsrətinə son qoyuldu. İnanıram ki, vaxt gələcək dədə-baba torpaqlarımız olan Zəngəzura, Göyçəyə də səfər edəcəyik".

## "Dəniz Kuboku" müsabiqəsində iştirak edəcək hərbi dənizçilərimiz yola salınıb



"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində "Dəniz Kuboku" müsabiqəsində iştirak edəcək Hərbi Dəniz Qüvvələrinin (HDQ) hərbi qulluqçuları İranın Ənzəli şəhərinə yola salınıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ölkəmizi müsabiqədə HDQ-nin G-122 və G-124 gözətçi gəmiləri təmsil edəcək.

Qeyd edək ki, Azərbaycan Ordusunun hərbi qulluqçuları avqustun 22-də başlayacaq "Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində keçiriləcək "Tank Biatlonu" (Rusiya), "Artilleriya Atəşinin Ustaları" (Qazaxıstan), "Dəniz Kuboku" (İran) və "Mədəniyyət Ordusu" (Rusiya) müsabiqələrində iştirak edəcək.

## Azərbaycan diasporunun nümayəndələri Şuşadadırlar

Azərbaycanda olan diaspor nümayəndələrindən ibarət ikinci qrup Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə artıq Şuşa şəhərindədir.

"Biz dəmir yumruğun gücü ilə Şuşadayıq" şüarı altında reallaşan birgünlük səfər çərçivəsində diaspor nümayəndələri Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın tarixi-memarlıq incilərini, erməni vandalizminin sübutu olan "Güllələnmiş heykəllər"in olduğu meydanı, iki qardaş ölkəni bir-birinə sıx tellərlə bağlayan Şuşa Bəyannaməsinin imzalandığı yeri, Şuşa qalasının üç əsas qapısından biri olan Gəncə qapısını, qədim tarixə malik Saatlı, Aşağı və Yuxarı Gövhər ağa məscidlərini, Mehmandarovların evini, Xurşidbanu Natəvanın evini, Cıdır düzünü və digər tarixi əhəmiyyətli yerləri ziyarət edirlər.

Diaspor üzvlərinə ölkə rəhbərliyinin tapşırığı ilə Şuşada və Qarabağın digər ərazilərində aparılan bərpa-quruculuq işləri barədə ətraflı məlumat verilir. Xaricdə yaşayan azərbaycanlılar iri ölçülü Azərbaycan bayrağını Cıdır düzündə dalğalandırıblar.

Qeyd edək ki, iyulun 27-də komitənin təşkilatçılığı ilə diaspor nümayəndələrinin Şuşa şəhərinə ilk səfəri təşkil olunmuşdu və səfər böyük marağa səbəb olmuşdu.

Azərbaycan diaspor nümayəndələrinin Qarabağa ikinci səfərində 26 ölkədən 100-ə yaxın diaspor nümayəndəsi iştirak edir.







## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC-nin "katriclərin doldurulması" xidmətinin kotirovka üsulu ilə satın alınması üzrə 30 iyul 2021-ci il tarixli yekun protokoluna əsasən "Best Tech" MMC qalib elan edilmiş və 12 avqust 2021-ci il tarixdə müqavilə imzalanmışdır.

Ünvan: AZ1100, Bakı şəhəri, Yasamal rayonu, Nazim Hikmət küçəsi, 27. Əlaqələndirici şəxs: Nəsimi Kərimzadə.Telefon: (+99451) 207-59-12.

*Tender komissiyası*

# "YAŞAT" düşərgəsinin beşinci həftəsi başlayıb




"YAŞAT" Fondunun və "ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı ilə şəhid övladları üçün həyata keçirilən "YAŞAT" düşərgəsinin beşinci həftəsinə start verilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, ilkin olaraq açılış mərasimi və komanda ilə tanışlıq, ardınca isə psixoloji qrup oyunları keçirilib.

Sonra iştirakçılar macəra parkurunda müxtəlif maneələri dəf edərək maraqlı vaxt keçiriblər.

Günün sonunda uşaqlar stolüstü oyunlar oynayıblar.

Düşərgə ərzində uşaqlar üçün əyləncə saatları, öyrədici təlimlər, teatrlar, tanınmış şəxslər, peşəkarlar, qurum rəhbərləri ilə görüşlər, ekskursiyalar, habelə psixoloqların iştirakı ilə təlimlər, konsultasiyalar və müğənnilərin iştirakı ilə konsert proqramının keçirilməsi nəzərdə tutulub.

Düşərgənin beşinci həftəsi şəhidlərimizin 12-14 yaş kateqoriyasında olan övladlarını əhatə edir.

Həmçinin tərəfdaşlar tərəfindən iştirakçılara müxtəlif hədiyyələr təqdim edilir.

Düşərgə boyunca uşaqlar sığortalanmış olacaqlar və davamlı olaraq həkim nəzarəti və psixoloqlar tərəfindən müşayiət ediləcəklər. Psixoloqlar tərəfindən art və rəqs terapiyalar keçiriləcək, o cümlədən baş tutacaq fərdi və kollektiv görüşlər, konsultasiyalar zamanı aşkarlanmış problemlər üzrə müalicəyə ehtiyacı olan uşaqlar müəyyənləşdiriləcək və fond tərəfindən düşərgədən sonra müalicə prosesinə cəlb olunacaqlar.

İyulun 12-dən şəhid övladları üçün başlayan yay düşərgələri avqust ayının sonuna qədər davam edəcək. Ümumilikdə 300-dək uşağı əhatə edəcək 6 düşərgənin həyata keçirilməsi nəzərdə tutulub. Hər düşərgə ümumilikdə 6 gün 5 gecəni əhatə edəcəkdir.

Düşərgənin media dəstəkçiləri Azərbaycan Televiziyası (AzTV), İctimai Televiziya (İTV) və ASAN Radiodur.

Düşərgənin baş sponsorları "Lankaran springs" otel, "PMD Hospitality"dir.

Sponsorlar "Elektron Hökumətin İnkişafı Mərkəzi", "İnnovasiyalar Mərkəzi", "PAŞA Bank", "PAŞA Həyat", "Bravo", "Nar", "Gazelli Group", "Rabitəbank", "Turanbank", "Decoria", "AMO Group", "Slavyanka", "Azərsun", "Shokki Mokki", "Əli və Nino", "Oven", "Happy day cake", Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA), "Gənc Psixoloqlar" İctimai Birliyi, logistika dəstəyi Bakı Nəqliyyat Agentliyidir.




# Sərhəd Mühafizəsinin 102-ci ildönümü ərəfəsində keçirilən tədbirlərdə şəhidlərimizin xatirəsi anılır və qazilərimizə qayğı göstərilir









Azərbaycan Sərhəd Mühafizəsinin 102 illiyi ərəfəsində keçirilən tədbirlərdə ölkəmizin ərazi bütövlüyünün təmin olunması, müqəddəs torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda Vətən müharibəsində həlak olmuş sərhədçilərin əziz xatirələrinin anılmasına, qazilərimizə diqqət və qayğı göstərilməsinə xüsusi yer verilir.



Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən bildiriblər ki, avqustun 14-16-da DSX-nin rəhbər vəzifəli şəxsləri tərəfindən şəhid sərhədçilərin ailələrinə və Vətən müharibəsinin qazilərinə baş çəkilib.

Torpaqlarımızın düşmən tapdağından azad edilməsi uğrunda qazilərimizin və şəhidlərimizin rəşadət və qəhrəmanlıq salnaməsi yazdıqları barədə danışılıb, onların Vətən yolunda xalqımıza qələbə sevincini yaşadan fədakarlığının yaddaşlardan silinməyəcəyi vurğulanıb.

Şəhidlərin xatirələrinin əbədiləşdirilməsi, onların ailələrinin və qazilərin sosial müdafiəsinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindən olması, həmin məsələlərin daim diqqət mərkəzində saxlanıldığı bildirilib.

Ziyarətlər zamanı Dövlət Sərhəd Xidmətinin 47 şəhid hərbi qulluqçusunun Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə ölümlərindən sonra təltif edildikləri orden və medallar ailə üzvlərinə təqdim edilib, həmçinin qazilərimizin dövlət təltifləri onlara verilib.

Şəhidlərin ailə üzvləri və qazilər göstərilən diqqət və qayğıya görə minnətdarlıq ifadə edib, Azərbaycanın Sərhəd Mühafizəsi üçün bu əlamətdar dövrdə onların anılması, şəhid ailələrinin ziyarət edilməsinin dövlətimizin Vətən müharibəsinin iştirakçılarına göstərdiyi diqqətin, şəhidlərə ifadə olunan ehtiramının bariz nümunəsi olduğunu bildiriblər.

***"Azərbaycan"***

# Dünya şöhrətli müğənni Müslüm Maqomayevin xatirəsi anılıb



Avqustun 17-də dünya şöhrətli müğənni, SSRİ-nin və Azərbaycanın Xalq artisti Müslüm Maqomayevin anadan olmasının 79-cu ildönümü günündə Mədəniyyət Nazirliyinin rəsmiləri, respublikanın tanınmış mədəniyyət və incəsənət xadimləri birinci Fəxri xiyabana gələrək unudulmaz sənətkarın məzarını ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev hamı tərəfindən sevilən, görkəmli müğənni, tanınmış vokal ifaçısı Müslüm Maqomayevin zəngin yaradıcılığından bəhs edərək deyib: "Müslüm Maqomayev çox şərəfli, yaradıcı uğurları dolu bir ömür yaşayıb. O, bütün ömrünü musiqiyə həsr etdi və təkrarolunmaz keyfiyyətlərlə ucalığa qalxdı. Müslüm Maqomayev musiqiçi ailəsində doğulduğuna görə piano, bəstəkarlıq sahəsində böyük nailiyyətlər qazandı".

Müslüm Maqomayevin ömrünün böyük hissəsinin Moskvada keçdiyini və gənc yaşlarında məşhurlaşdığını deyən V.Əliyev bildirib ki, o, tez-tez Moskvada keçirilən müsabiqələrdə layiqli yerlər tuturdu. V.Əliyev bildirib ki, Müslüm Maqomayevin konserti Rusiyada hər zaman böyük coşqu ilə keçirdi. 31 yaşında SSRİ-nin Xalq artisti adını alması onun istedadından xəbər verirdi.

"Harada olmasından asılı olmayaraq, Müslüm Maqovayev bir an da olsun Azərbaycanı unutmurdu. Xarici bəstəkarların musiqisini ifa etməklə yanaşı, öz repertuarına Azərbaycan mahnılarını da salırdı. Onun Xalq şairi Nəbi Xəzrinin sözlərinə bəstələdiyi və dillər əzbəri olan, vətənimizin himni kimi əzəmətli səslənən "Azərbaycan" mahnısı da ölkəmizə ithaf olunmuş ən gözəl əsərlərdəndir.

Üzeyir bəy Hacıbəylinin ev-muzeyinin direktoru, Xalq artisti Sərdar Fərəcov Müslüm Maqomayevin XX əsrin ən nəhəng vokal ifaçılarından biri olduğunu bildirib: "O, dünya estradasının ən gözəl nümunələrini seçərək özünəməxsus şəkildə ifa edirdi. Müslüm gəncliyində P.Çaykovskinin silsilə romanslarını elə məharətlə ifa etmişdi ki, dinləyicilərin qəlbində ən xoş izlər buraxmışdı".

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti Şəfiqə Məmmədova deyib ki, ötən əsrin 60-70-ci illərində Müslüm Maqomayevin məşhurluğunun həddi-hüdudu yox idi. Konsert salonlarındakı yerlər azlıq etdiyindən o, stadionlarda minlərlə dinləyici qarşısında çıxış edir, daim qastrol səfərlərində olurdu. Mahnıları yazılan vallar çox böyük tirajla buraxılırdı. Məhz buna görə də onu sovet estradasının son yarım əsrdəki ən parlaq ulduzu, kralı, rəmzi adlandırırlar. Keçmiş SSRİ-də klassik opera ariyalarını estradaya məhz Müslüm Maqomayev gətirib.

Müslüm Maqomayevin yaradıcılığının təkrarolunmaz olduğunu söyləyən Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov deyib: "Ona çatmaq çox çətindir. O, özünü hər zaman azərbaycanlı sayır və bununla da fəxr edirdi. Onun musiqisi yaşayır və yaşayacaq".

Rusiyanın Azərbaycandakı müvəqqəti işlər vəkili Pyotr Volokovıx bildirib ki, onun anası Müslüm Maqomayevin böyük pərəstişkarı olub. O, Müslüm Maqomayevin valideynlərindən qalan vallarını indiyə qədər evində qoruyub saxladığını söyləyib: "Çünki Müslüm Maqomayevin oxuduğu mahnılar insanlarda pozitiv emosiyalar yaradır".

# Saxta COVID-19 pasportu verən vəzifəli şəxslər ifşa olunub

Paytaxtın Sabunçu rayonundakı 11 saylı şəhər poliklinikasında COVID-19 pasportunun qanunsuz verilməsi barədə Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsindən daxil olmuş material üzrə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, araşdırma ilə həmin poliklinikanın əməkdaşları tərəfindən müxtəlif məbləğlərdə pul müqabilində ayrı-ayrı şəxslərə vaksin vurulmadığı halda saxta COVID-19 pasportunun verilməsinə əsaslı şübhələr müəyyən olunduğundan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb və istintaqın aparılması Baş İdarənin İstintaq idarəsinə tapşırılıb.

Hazırda yuxarıda göstərilən cinayət əməllərinin törədilməsində hər hansı formada iştirak etmiş şəxslərin müəyyənləşdirilməsi məqsədilə intensiv istintaq hərəkətləri davam etdirilir.

Baş Prokurorluq bir daha vətəndaşlara müraciət edərək COVID-19 pandemiyası ilə mübarizədə ən effektiv və səmərəli tədbirlərdən olan vaksinasiyadan keçməyi tövsiyə edir. Həmçinin bu kimi hallarla rastlaşan şəxslərin Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin 161 nömrəli "Qaynar xətt" əlaqə mərkəzinə məlumat vermələri xahiş olunur.

# Koronavirusa 3322 yeni yoluxma faktı qeydə alınıb




Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 3322 yoluxma faktı qeydə alınıb, 847 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 18 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 373 min 175 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 340 min 174 nəfər müalicə olunaraq sağalıb, 5 min 188 nəfər vəfat edib. Aktiv xəstə sayı 27 min 813 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 15 min 7, bu günə qədər isə ümumilikdə 4 milyon 235 min 141 test icra olunub.

# Bu gün COVID-19 əleyhinə 71 min dozadan çox peyvənd vurulub

Avqustun 17-də Azərbaycanda 71 min 732 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 53 min 662, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 18 min 70 nəfər təşkil edib.

Azərbaycanda bugünə qədər vurulan vaksinlərin ümumi sayı 5 milyon 866 min 215, o cümlədən birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 3 milyon 473 min 806, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 2 milyon 392 min 409 nəfər təşkil edir.

# İlin birinci yarısında 87 cinayət işi üzrə ittiham aktı təsdiqlənməyərək istintaqın davam etdirilməsi üçün geri qaytarılıb

Cari ilin yanvar-iyul aylarında ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlar tərəfindən 87 iş üzrə ittiham aktı təsdiq olunmayaraq, istintaqın davam etdirilməsi üçün geri qaytarılıb.

Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Qeyd edək ki, prokurorluq orqanlarının fəaliyyətini əks etdirən rəqəmlər barədə Baş Prokurorluq tərəfindən kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə #gununreqemihəştəqi ilə məlumatlar yerləşdirilir. Baş Prokurorluğun sosial şəbəkələrdəki səhifələrini izləməklə prokurorluq orqanlarının fəaliyyətindəki yeniliklərdən xəbərdar olmaq mümkündür.

# Külli miqdarda narkotik vasitənin və psixotrop maddənin dövlət sərhədindən keçirilməsinin qarşısı alınıb

Dövlət Sərhəd Xidmətinin (DSX) əməkdaşlarının sayıqlığı nəticəsində təxmini çəkisi 33 kiloqram olan narkotik vasitənin, 314 ədəd psixotrop və güclü təsirli maddənin qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınıb.



DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, avqustun 17-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Beyləqan rayonunun 2-ci Şahsevən kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikası ərazisinə hərəkət edən naməlum şəxsin dövlət sərhədini pozması sərhəd naryadı tərəfindən müşahidə olunub. Sərhəd naryadının "Dayan" əmrinə tabe olmayan sərhəd pozucusu ərazidən qaçmağa çalışarkən saxlanılıb.

Saxlanılan şəxsin Beyləqan rayon sakini 1981-ci il təvəllüdlü Ağayev Vüsal Bayram oğlu olması müəyyənləşdirilib. Onun əlindəki idman çantasına baxış zamanı içərisində təxmini çəkisi 33 kiloqram olan narkotik vasitəyə - 25 kiloqram 340 qram heroin, 5 kiloqram 800 qram metamfetamin, 1 kiloqram 720 qram marixuana, 60 qram tiryək, 284 ədəd metadon M40 və 30 ədəd preqabalin dərman həblərinə oxşar maddələr aşkarlanaraq götürülüb.

Faktla bağlı əməliyyat-istintaq tədbirləri həyata keçirilir.

Dövlət sərhədinin etibarlı mühafizəsi, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

***"Azərbaycan"***


## B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası Tender komissiyasının 16 iyul 2021-ci il tarixdə "Maşın, avadanlıq və ləvazimatlartın satın alınması" ilə əlaqədar keçirdiyi elektron açıq tender prosedurunda "ULTRA TECHOLOGİES" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan edilmişdir. Qalib iddiaçı ilə 27 iyul 2021-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası abadlaşdırma işlərinin satın alınması məqsədilə kotirovka sorğusu keçirir

Maraqlananlar +99412 564-09-00 telefon nömrəsi vasitəsilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 18.08.2021-ci il saat 09:00-dan 02.09.2021-ci il saat 11:00-dək qəbul olunur. Ünvan: Bakı şəhəri, Fətəli Xan Xoyski prospekti, 98 Telefon: +99412 564-09-00 E-mail: info@sport.edu.az

***Tender komissiyası***

## Agricultural Competitiveness Improvement Project
## Loan No 8286-Az
## AWARD NOTICE

17.08.2021

Procurement of Equipment and tools for new laboratories of Food Safety Agency

This notice includes findings of bid evaluation for the bidding process held for the **procurement of equipment and tools for new laboratories of Food Safety Agency.**

The Invitation for Bids was advertised in www.akia.gov.az on June 17, 2021 and in newspaper Azerbaijan, on June 18, 2021 and deadline for submission of bids was specified as July 22, 2021, 15:00 local Baku time.

3(three) companies applied to the PMU for obtaining of the bidding documents:

| No | Name of Company | Country origin | Date of apply |
|---|---|---|---|
| 1 | “UAB Lokmis” | Bulgaria | June 18, 2021 |
| 2 | “Medeks” LLC | Azerbaijan | July 02, 2021 |
| 3 | “MGM Group İnşaat Elektrik Malzemeleri Diş Ticaret Limited Şirketi” | Turkey | July 07, 2021 |

Following 2 (two) companies submitted their bids by the deadline, July 22, 2021 by 15:00. Read-out prices were as follows:

| No | Name of Company | Read out prices | Bid Security |
|---|---|---|---|
| 1 | “Medeks” LLC (Azerbaijan) | 978 151.56 AZN | AZN 30,000.00 (Kapital Bank) |
| 2 | “MGM Group İnşaat Elektrik Malzemeleri Diş Ticaret Limited Şirketi” (Turkey) | 494 477.63 USD | AZN 30,000.00 (Bank Respublika, Bid security is not original) |

Reasons for rejections:

| No | Name of Company | Read out prices | Reasons for rejections |
|---|---|---|---|
| 1 | “Medeks” LLC | 978 151.56 AZN | Awarded |
| 2 | “MGM Group İnşaat Elektrik Malzemeleri Diş Ticaret Limited Şirketi” | 494 477.63 USD | Failed submission of original Bid Security and most of qualification requirements. |

Considering the detailed check results, the Evaluation Committee issued the recommendation to award the Contract to substantially responsive and lowest evaluated Bidder **“Medeks” LLC (Azerbaijan) with the Contract amount 978 151.56 (nine hundred seventy eight thousand one hundred fifty one AZN and fifty six gapiks) included VAT, DDP Terms of supply.**

**Contract was signed on August 11, 2021.**

# OXUCULARIN NƏZƏRİNƏ!
# “AZƏRBAYCAN”

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| “Azərmətbuatyayımı” ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| “Azərpoçt” ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| “Qaya” firması | (012) 566-77-80, (050) 214-40-53 |
| “Kaspi” MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| “Region Press” MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| “Səma-M” MMC | (012) 594-09-59 |
| “Ziya” LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| “Pressinform” MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| “City press” MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq ekoturizmin inkişafı istiqamətində maarifləndirmə işləri ilə bağlı xidmətlərin satın alınması məqsədilə
### *açıq tender elan edir*

Açıq tenderdə iddiaçı qismində ixtisaslı işçi heyətinə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının https//www.etender.gov.az/ vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını (ASAN ödəniş vasitəsilə) aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə və müsabiqə üçün təkliflərini təqdim edə bilərlər:

**AZN hesabı**
**Emitent**
**Bankın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Bankın kodu: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Alan: Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi**
**VÖEN: 1404365471**
**H/h: AZ53CTRE00000000000008498501**
**Büdcə səviyyəsinin kodu -7**
**Büdcə təsnifatının kodu -142330**

Tenderdə iştirak haqqı 200 manatdır. İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi (ASAN ödəniş);*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;*
- *iddiaçının son 1 (bir) ildəki fəaliyyəti haqqında dövlət orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatı;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin və onlara edilmiş əlavə və düzəlişlərin müvafiq qaydada təsdiqlənmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *məhkumluq barədə arayış;*
- *peşəkar kadr heyəti və müvafiq işləri icra edəcək hər bir mütəxəssisin tərcümeyi-halı (CV);*
- *iddiaçının son 3 (üç) il ərzində oxşar işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat;*
- *digər sənədlər (tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). Mətnlər arasında fərq aşkar olunarsa, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tenderlə əlaqədar istənilən məlumatı almaq üçün aşağıdakı şəxsə müraciət etmək olar:
Əlaqələndirici şəxs: Mehman Bayramov.
Ünvan: Bakı şəhəri, Nizami küçəsi, 96E, Landmark I, 3-cü mərtəbə.
Telefon: +994125058704 (əlavə 2304); Faks: +994124920592.
E-mail: mehman.bayramov@tourism.gov.az

İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak üçün sənədləri (tender təklifi və təklifin bank təminatı istisna olmaqla) 08 sentyabr 2021-ci il saat 12:00-a, tender təklifini və təklifin bank təminatını isə 16 sentyabr 2021-ci il saat 18:00-dək Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların tender təkliflərinin açılışı 17 sentyabr 2021-ci il saat 12:00-da dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır. Elektron satınalmanın hər bir iştirakçısı onların təkliflərinin açılışını və qiymətləndirilməsini elektron Portal vasitəsilə izləyə bilər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi xüsusi kriminalistik avadanlıqların, mini ATS-in, monitorun, kağız doğrayanın, UPS-lərin, skanerin, kompüterlərin, monoblokun, televizorun, kommutatorun, şəbəkə qurğusunun, sərt disklərin alınması və quraşdırılması ilə əlaqədar
### *açıq tender elan edir*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

İddiaçılar 430.00 (dörd yüz otuz) manat məbləğində iştirak haqqını (ASAN ödəniş vasitəsilə) aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu dövlət satınalmaları vahid internet Portalı vasitəsilə əldə edə və müsabiqə üçün təkliflərini təqdim edə bilərlər.

Əlaqələndirici şəxs: Kərimov Rauf, əlaqə telefonu: +99470 382-07-07.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi

**VÖEN: 1700326621**
**H/h: AZ34CTRE00000000000002088501**
**Fond -7 Maddə - 142330. Tender xərci**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T BİK: CTREZA22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İştirakçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (təklif zərflərin açıldığı gündən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçıların son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçıların tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların son bir ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanları haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Üstünlük Azərbaycan dilinə veriləcəkdir.

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **06 sentyabr 2021-ci il saat 11:00-a** qədər, tender təklifini və bank təminatını isə **14 sentyabr 2021-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların tender təkliflərinin açılışı **15 sentyabr 2021-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalında aparılacaqdır. Elektron satınalmanın hər bir iştirakçısı onların təkliflərinin açılışını və qiymətləndirilməsini elektron Portal vasitəsilə izləyə bilər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

Təkrar

## Göygöl Rayon İcra Hakimiyyətinin Göygöl şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi 2021-ci il üçün
### *açıq tender elan edir*

**LOT 1- Göygöl şəhərində küçə, park və bağçanın işıqlandırma sistemlərinin təmiri və yenidən qurulması.**

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq göstərilən LOT üzrə təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:
- aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi , analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqavilənin vaxtında yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderlə əlaqədar məlumat almaq üçün maraqlananlar Tender komissiyasına müraciət edə bilərlər.

Ünvan: Göygöl şəhəri, S.Hacıyev küçəsi, 42
Telefon: 022-205-23-69; (050) 681-61-50
Əlaqələndirici şəxs: Allahverdiyeva Fəridə Mayıl qızı

Maraqlananlar aşağıdakı məbləğdə iştirak haqqını köçürdükdən sonra Əsas şərtlər toplusunu yuxarıda göstərilən ünvandan ala bilərlər.

İştirak haqqı - 350 manat. İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

Təşkilat: Göygöl Rayon İHB-nın Göygöl şəhər İƏD-si üzrə nümayəndəliyi

**HESAB: AZ93CTRE00000000000002511232**
**VÖEN: 7600050571**
**BANK: DÖVLƏT XƏZİNƏDARLIĞI AGENTLİYİ**
**Kodu: 210005**
**VÖEN BANK: 1401555071**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T. CTREAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında məlumat;*
- *işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat;*
- *vergilərə və digər icbari ödənişlərə dair borcların olmaması barədə arayış;*
- *tender təkliflərinin təminatı (zərflərin açıldığı tarixdən sonra 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 faizi həcmində bank zəmanəti (zərflərin açıldığı gündən sonra 60 bank günü qüvvədə olmalıdır).*

İddiaçılar tələb olunan sənədləri 01.09.2021-ci il saat 12:00-dək, tender təklifi və bank zəmanətini isə 09.09.2021-ci il saat 12:00-dək təqdim etməlidirlər.

Tender zərfləri 10.09.2021-ci il saat 12:00-da açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti tərəfindən 14 iyul 2021-ci il tarixdə www.etender.gov.az portalında və 15 iyul 2021-ci il tarixli “Azərbaycan” qəzetində dərc olunmuş LDU-nun 2 saylı tədris korpusunun həyətində 5 mərtəbəli yeni tədris korpusunun tikintisi işləri üzrə açıq tenderdə (e.Tenderdə) tender təklifi vermiş iddiaçıların sayı üçdən az olduğu üçün “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin 11.1. bəndinə əsasən davamından imtina edilmişdir.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqı Federasiyasının sədri Tofiq Quliyev və federasiyanın kollektivi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin birləşmiş həmkarlar ittifaqı komitəsinin sədri Fuad Məmmədova anası

**SÜRƏYYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rəhim Məmmədov, Tofiq Sarıcalinski, Hidayət Bəşirov və Fikrət Əzizov AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, professor

**TULPARXAN SALAVATOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin İsmayıllı rayon filialının direktoru Zenfira Əhmədova İsmayıllı Regional Mədəniyyət İdarəsinin rəisi Elçin Nəcəfova atası

**EMİL NƏCƏF OĞLU NƏCƏFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

*Gündəlik qəzet*

**Tiraj 4933**
**Sifariş 1507**
**Qiyməti 40 qəpik**